RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 232 (8255) ŞƏNBƏ, 19 oktyabr 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az






# İşıqlı ölkə

## Son illər Azərbaycanda onlarca elektrik stansiyası və yarımstansiyası tikilib, ötürücü infrastruktur təkmilləşdirilib

**Bu yaxınlarda Davos Ümumdünya İqtisadi Forumu yeni hesabatını təqdim edib. Hesabatdan bir daha məlum olur ki, Azərbaycanda aparılan islahatlar ardıcıl xarakter daşıyır. Bu il oktyabrın 15-də Prezident İlham Əliyevin yanında keçirilən iqtisadi müşavirədə həmin hesabatdan bəzi məqamlar göstərilib. Onlardan biri də Azərbaycanın elektrik enerjisinin əlçatanlıq əmsalına görə dünyada ikinci yerdə olmasıdır.**

Yaxın keçmişdə ölkəmizin əhalisi elektrik enerjisi sarıdan çox korluq çəkirdi. Keçən əsrin 90-cı illərinin əvvəllərində insanların kortəbii miqrasiyasının - kəndlərdən şəhərlərə axınının, eləcə də digər ölkələrə üz tutmasının bir səbəbi də işığın və istiliyin olmaması idi. Amma heç şəhərlərdə, elə paytaxtın özündə də sakinlər kifayət qədər elektrik enerjisi ala bilmirdilər. Bu barədə Nazirlər Kabinetinin birinci rübün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında Prezident İlham Əliyev həmin dövrü xatırlayaraq demişdir: "Vaxt var idi ölkəmizi qaranlıq bürümüşdü. Vaxt var idi gecə saat 12-də televizor da söndürülürdü ki, elektrik enerjisinə sərfiyyat azalsın. Biz xaricdən elektrik enerjisini alırdıq və özümüzü güc-bəla ilə təmin edirdik. İndi biz xaricə elektrik enerjisi ixrac edirik. Ölkə daxilində bütün bu işlər görülüb".

Bu günlərdə 9 ayın göstəricilərindən bəhs edən iqtisadi müşavirədə də dövlət başçısı sözügedən sahədə qazanılan nailiyyətləri bir daha qeyd etmişdir: "Elektrik enerjisinin əlçatanlıq əmsalına görə biz dünyada ikinci yerdəyik. Son illərdə bu qədər elektrik stansiyalarının, yarımstansiyaların, ötürücü xətlərin tikilməsi bax bizi dünya miqyasında ikinci yerə gətirib çıxardı".

Regionların sosial-iqtisadi inkişafına yönəldilən I Dövlət Proqramı həyata keçirilməyə başladığı vaxtdan bu sahədə də genişmiqyaslı işlər görülüb. Beləliklə, 15 il ərzində, yəni keçən ilin sonunadək 31 yeni stansiya tikilib, 2500 meqavatlıq yeni güclər yaradılıb. Onlardan biri də bu ilin sentyabrında Bakıda istifadəyə verilmiş "Şimal-2" elektrik stansiyasıdır.

"Şimal-1" və "Şimal-2" elektrik stansiyalarının birlikdə il ərzində gözlənilən istehsalı 5,7 milyard kilovat-saat təşkil edir. Hazırda ən yüksək faydalı iş əmsalına malik olan bu iki elektrik stansiyası birlikdə respublika üzrə elektrik enerjisi istehsalının 20 faizini, Bakı və Abşeron yarımadası üzrə 40-50 faizini təşkil edəcək.

Yeni elektrik stansiyası enerjisistemin texniki-iqtisadi göstəricilərinin yaxşılaşdırılmasına əsaslı təsir göstərməklə yanaşı, həm də il ərzində 77 milyon kubmetr təbii qazın qənaət edilməsinə, eləcə də regionlardan Bakı şəhərinə verilən enerjinin miqdarının 20 faiz azalması nəticəsində elektrik enerjisinin uzaq məsafədən ötürülməsindən yaranan 199 milyon kilovat-saat elektrik enerjisi itkisinə qənaət etməyə imkan yaradacaq.

Elektrik stansiyası 57,4 faiz faydalı iş əmsalına malikdir. Bu, Cənubi Qafqaz regionunda ən faydalı iş əmsalı sayılır. Bu obyekt il ərzində 3,2 milyard kilovat-saat elektrik enerjisi istehsal edəcək.

Elektrik stansiyalarının tikintisi Bakıda və digər şəhərlərdə aparılmaqla yanaşı, bir çox rayonları da əhatə edir. Bölgələrdə elektrik stansiyalarının yaradılması həm enerji təminatının gücləndirilməsində mühüm rol oynayır, həm də regionların inkişafına təkan verməklə əlavə iş yerlərinin açılmasına səbəb olur. Bu baxımdan Lerik rayonunda gücü 16,5 meqavat olan elektrik stansiyası da əhəmiyyətlidir.

Bu, Prezident İlham Əliyevin açılışında iştirak etdiyi çoxsaylı obyektlərdən biridir. Stansiya ölkənin cənub bölgəsinin elektrik enerjisi ilə təminatını yaxşılaşdırmaq məqsədilə inşa edilib və bir il əvvəl istifadəyə verilib. Elektrik stansiyası Lerikin mərkəzindən bir kilometr cənubda, Cəngəmiran kəndində 3,6 hektar ərazidə yerləşir.

*Ardı 4-cü səh.*

# Bu ilin sonunadək 6000, gələn il isə 7000-dən çox məcburi köçkün ailəsi mənzillə təmin olunacaq

## Prezident İlham Əliyev Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədrini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 18-də Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayevi qəbul edib.**

AZƏRTAC xəbər verir ki, məcburi köçkünlərin problemlərinin həlli istiqamətində bu il də çox böyük işlərin nəzərdə tutulduğunu qeyd edən **Prezident İlham ƏLİYEV** dedi:

- Məcburi köçkünlərin problemlərinin həlli istiqamətində bu il də çox böyük işlər nəzərdə tutulur. Bu işlərin bir hissəsi artıq görülüb. Bu yaxınlarda "Qobu Park-2" yaşayış kompleksinin açılışını qeyd etdik. Bu kompleksdə 1300 qaçqın ailəsi yerləşəcək. Kompleksin açılışında gördüm ki, ən yüksək standartlar tətbiq olunur. Çox gözəl, rahat evlər, gözəl ictimai zonalar, məktəb, uşaq bağçası, supermarket, tibb məntəqəsi, yəni, yaşayış üçün bütün şərait yaradılıbdır. Sevindirici hal ondan ibarətdir ki, "Qobu-1" və "Qobu-2" komplekslərinin tikintisi sırf özəl sektor tərəfindən təmin edildi. Hazırda tikilməkdə olan "Qobu-3" də özəl sektorun vəsaiti hesabına inşa edilir. Beləliklə, təqribən 4 minə yaxın köçkün ailəsi Qobu qəsəbəsində ən müasir standartlara cavab verən mənzillərlə təmin ediləcəkdir.

Mən açılış zamanı sahibkarlara da çağırış etdim, onlara bu işlərə qoşulmağı tövsiyə etdim.

*Ardı 2-ci səh.*

# Birinci vitse-prezident Mehriban Əliyeva Dövlət Müstəqilliyi Günü münasibətilə Azərbaycan xalqını təbrik edib

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Dövlət Müstəqilliyi Günü münasibətilə rəsmi "Instagram" səhifəsində paylaşım edib.

Paylaşımda deyilir: "Əziz həmvətənlər! Sizi Dövlət Müstəqilliyi Günü münasibətilə təbrik edirəm! Ölkəmizə davamlı inkişaf, yeni-yeni nailiyyətlər, sülh və firavanlıq arzulayıram".



# Azərbaycan-Latviya əməkdaşlığı genişlənir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 18-də Latviya Respublikasının sabiq prezidenti Raymonds Veyonislə görüşüb.

AZƏRTAC xəbər verir ki, qonağı salamlayan Prezident **İlham ƏLİYEV** dedi:

- Sizi görməyimə şadam. Xoş gəlmisiniz.

**Raymonds VEYONİS:** Yenidən Bakıda olmaq xoşdur.

**Prezident İlham ƏLİYEV:** Mən öyrəndim ki, siz ölkəmizdə səfərdəsiniz. Sizi görməyimə çox şadam.

**Raymonds VEYONİS:** Dünən gəlmişəm və iki mühazirə oxumuşam.

**Prezident İlham ƏLİYEV:** Bəli, bilirəm, ADA-da.

**Raymonds VEYONİS:** Təkcə ADA-da deyil, həm də Qərbi Kaspi Universitetində.

**Prezident İlham ƏLİYEV:** Çox yaxşı.

**Raymonds VEYONİS:** Mən Azərbaycan və Latviya tarixi, mədəni əməkdaşlıqla bağlı fikirlərimi bildirdim.

**Prezident İlham ƏLİYEV:** Mən bizim birgə işimizi xatırlayıram. Sizin Azərbaycana rəsmi səfərinizi, mənim Latviyaya rəsmi səfərimi xatırlayıram. Düşünürəm ki, birgə fəaliyyətimiz ərzində biz münasibətlərimizi irəli aparmağa nail olmuşuq.



**Raymonds VEYONİS:** Çox iş görmüşük.

**Prezident İlham ƏLİYEV:** Biz siyasi, eləcə də iqtisadi əlaqələr baxımından çox iş görmüşük. Mən həmçinin şadam ki, biz razılaşdırdığımız bütün işləri həyata keçirmişik. Xatırlayıram ki, ölkənizə son səfərim zamanı biz Azərbaycan Ticarət Evinin açılması ilə bağlı sizinlə razılığa gəldik.

**Raymonds VEYONİS:** Bəli, Ticarət Evi.

**Prezident İlham ƏLİYEV:** Bir müddət sonra o açıldı. Bu, sizin regionda ilk Azərbaycan Ticarət Evidir. Hazırda bizim Polşada, Çində, Rusiyada, Ukraynada, Birləşmiş Ərəb Əmirliklərində, bəzi başqa ölkələrdə ticarət evlərimiz var. Mən şadam ki, sizin regionunuzda bu, Latviyadadır, çünki bizim həqiqətən də sıx əlaqələrimiz var. Bildiyiniz kimi, Latviyanın sabiq prezidenti xanım Vike Freyberqa da Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri kimi çox fəaldır. Beləliklə, əlaqələrimizin yaxşı tarixçəsi var. Əminəm ki, qarşıdakı illərdə ölkələrimiz sıx əməkdaşlığı davam etdirəcək.

**Raymonds VEYONİS:** Əlaqələr həqiqətən də çox yaxşıdır. Bu gün tələbələrə dediyim kimi, biz həqiqətən də müxtəlif səviyyələrdə hər zaman inkişaf etdirilməsi mümkün olan əla tərəfdaşlığa ümid bəsləyirik və düşünürəm ki, hər iki tərəf bu tərəfdaşlıqdan zövq alacaq. Bizim ölkəmiz üçün Azərbaycan bu regionda çox yaxın strateji tərəfdaş olub, tərəfdaşdır və tərəfdaş olacaq.

# MSK bələdiyyə seçkilərinin dekabrın 23-də keçirilməsini qərara alıb

**Oktyabrın 18-də Məzahir Pənahovun sədrliyi ilə Mərkəzi Seçki Komissiyasının (MSK) növbəti iclası keçirilib.**

AZƏRTAC xəbər verir ki, komissiyanın iclasında əvvəlcə Azərbaycan Respublikasında növbəti bələdiyyə seçkilərinin təyin edilməsi məsələsinə baxılıb.

MSK sədri bildirib ki, bələdiyyələrin səlahiyyət müddəti başa çatır. Buna görə də Seçki Məcəlləsinin tələblərinə müvafiq olaraq azı 60 gün əvvəl bələdiyyələrə seçkilər təyin edilməlidir. Bu seçkilərdə respublika üzrə 1606 bələdiyyəyə 15156 üzv seçilməlidir. Bələdiyyə seçkiləri işğal altındakı 7 seçki dairəsi istisna olmaqla, ümumilikdə 118 seçki dairəsini əhatə edəcək.

MSK üzvləri seçkilərin təyin edilməsi haqqında qərar layihəsi ilə tanış olduqdan sonra Azərbaycan Respublikasında növbəti bələdiyyə seçkilərinin 2019-cu il dekabrın 23-nə təyin edilməsi barədə qərar qəbul olunub.

Sonra Azərbaycan Respublikasında bələdiyyə seçkilərinin hazırlanıb keçirilməsi üzrə əsas hərəkət və tədbirlərin Təqvim Planı müzakirə olunaraq təsdiq edilib.

Mərkəzi Seçki Komissiyasının katibi Arifə Muxtarova vətəndaşların seçki hüquqlarını pozan hərəkətlərdən (hərəkətsizlikdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədilə MSK nəzdində ekspert qrupunun yaradılmasına dair məsələyə də baxılması ilə bağlı çıxış edib. Komissiya üzvləri və katibliyin əməkdaşları da daxil olmaqla, MSK nəzdində 9 nəfərdən ibarət tərkibdə ekspert qrupu yaradılıb.

*Ardı 6-cı səh.*

# Bu ilin sonunadək 6000, gələn il isə 7000-dən çox məcburi köçkün ailəsi mənzillə təmin olunacaq

*Əvvəli 1-ci səh.*

Mənim çağırışıma sahibkarlar cavab veriblər. Hesab edirəm ki, köçkünlərin problemlərinin həlli ümumxalq məsələsi olmalıdır. Düzdür, əsas yükü dövlət öz üzərinə götürübdür. Bugünə qədər yüzdən çox şəhərciyin tikintisi dövlət hesabına təmin edilmişdir.

Ümumiyyətlə, köçkünlərin problemlərinin həlli, müavinətlərin verilməsi, evlərin tikilməsi üçün 7 milyard manatdan çox vəsait xərclənib. Bu il məcburi köçkünlərin müavinətləri 50 faiz artırıldı. Bu, bir daha onu göstərir ki, dövlət bu kateqoriyadan olan insanlara daim öz yardımını edir.

İlin sonuna qədər yeni şəhərciklərin açılışı nəzərdə tutulur. İlin əvvəlində nəzərdə tutduğumuz bütün işlər ilin sonuna qədər öz həllini tapmalıdır. Siz artıq indidən gələn ilin proqramı üzərində işləməlisiniz. Gələn il harada, nə qədər köçkün ailəsini biz yeni evlərlə, mənzillərlə təmin edə bilərik.

İndi isə görülən işlər haqqında məruzə edin və gələn il hansı işlərin görülməsi nəzərdə tutulmuşdur?

**Rövşən RZAYEV:** Çox sağ olun, möhtərəm cənab Prezident. İlk növbədə "Qobu Park-2"nin açılışında iştirak etdiyinizə görə təşəkkür edirəm. Bu park oktyabrın 8-də açıldı. Artıq məruzə edə bilərəm ki, Nəsimi rayonunda yerləşən yataqxanaların birində yaşayan 120 ailə yeni mənzillərdə məskunlaşıb. Proses davam etdirilir. Dünən ikinci püşkatma oldu. Nərimanov rayonunda və Sizə əvvəlcədən təqdim olunmuş ərazilərdəki yataqxanalarda məcburi köçkünlər siyahıya uyğun köçürüləcəklər. Bunun üçün Sizin tərəfinizdən bütün şərait yaradılıbdır. Komitənin bütün əməkdaşları bu istiqamətdə məşğuldurlar və işi davam etdirirlər.

Təbii ki, bu ilin sonuna qədər Sizin tapşırıqlarınıza əsasən bir neçə rayonda qəsəbələrin tikintisi başa çatdırılacaq. İcazə verin bir-bir sadalayım - Şirvan rayonunda 685 mənzilli qəsəbəmiz artıq hazırdır, tamamlama işləri yekunlaşır. Beləliklə, Şirvan şəhərində məskunlaşan bütün məcburi köçkünlər mənzillərlə təmin olunacaqlar. Hətta ətraf rayonlardan bir neçə ailəni də həmin qəsəbəyə yerləşdirə biləcəyik. Göyçay rayonunda 80 mənzildən ibarət binada artıq tamamlama işləri bitir. Orada da qəzalı vəziyyətdə olan bir binada yaşayan 80 məcburi köçkün ailəsinin hamısı yeni mənzillərə köçürüləcək. Sizin tapşırığınıza əsasən Kürdəmirdə salınan, 565 mənzildən ibarət böyük bir qəsəbəmizdə də tamamlama işləri aparılır. Yəqin ki, oktyabr ayının axırları, yaxud noyabrın ortalarında onu da təhvil verə biləcəyik. Beləliklə, Kürdəmir rayonunda məskunlaşan bütün məcburi köçkünlərin hamısı bu qəsəbədə mənzillə təmin olunacaq. Oraya hətta ətraf rayonlardan bir neçə ailəni də gətirə biləcəyik.

Göygöl rayonunda ümumilikdə 130 mənzildən ibarət üç binanın inşası davam edir. Ağcabədi rayonunda əsasən laçınlıların məskunlaşdığı Taxtakörpü qəsəbəsində 645 fərdi ev tikilir. Biz 645 ailəni ilin sonuna qədər o evlərə köçürəcəyik. Ucar rayonunda 250 ailəlik bir qəsəbəmiz də ilin sonuna qədər tamamlanacaq. Beləliklə, Sizin tapşırıqlarınız əsasında komitə tərəfindən inşa edilən mənzillərin sayı 3700-ə çatacaq.

Özəl sektorun töhfələri çox önəmlidir. Siz qeyd etdiyiniz kimi, özəl sektor tərəfindən tikilən 1300 ailəlik "Qobu Park-2" artıq açılıbdır. Özəl sektorun vəsaiti hesabına tikilən 540 mənzillik daha bir qəsəbəmiz var. İlin sonunadək biz o mənzilləri də məcburi köçkünlərə təqdim edəcəyik. Beləliklə, Siz dediyiniz rəqəmlər ilin sonuna qədər tamamilə həllini tapacaq.

Möhtərəm cənab Prezident, icazə verin, mən Sizin tapşırığınızla gələn il hansı rayonlarda hansı qəsəbələri tikəcəyimizlə bağlı komitə tərəfindən hazırlanan sənədləri diqqətinizə təqdim edim.

**Prezident İlham ƏLİYEV:** Ondan əvvəl mən soruşmaq istəyirəm. Sumqayıt şəhərində də mənim tapşırığımla yeni evlərin tikilməsi nəzərdə tutulur. Mənim göstərişimlə artıq Sumqayıtda şəhərcik salınıbdır. Bu istiqamətdə hansı işlər görülür?

**Rövşən RZAYEV:** Möhtərəm cənab Prezident, ötən il Sumqayıt şəhərində Sizin iştirakınızla iki qəsəbənin açılışını etmişik. Sumqayıtdakı 1001 ailəlik qəsəbədə məskunlaşma tamamilə başa çatıb. Sumqayıtın 12-ci mikrorayonunun ərazisində 1005 ailəlik şəhərcik Sizin iştirakınızla istifadəyə verilib və orada da köçkünlər yaşayırlar. Sizin tapşırıqlarınıza uyğun olaraq Abşeron rayonunun "Stansiya Sumqayıt" deyilən ərazisində 1250 ailəlik qəsəbənin tikintisi başlayıb, işlər davam etdirilir. Bu, Sizin investisiya xərclərindən ayırdığınız vəsait hesabına inşa edilir. Düşünürəm ki, biz o qəsəbəni də 10 ay ərzində təhvil verə biləcəyik.

Eyni zamanda, Sumqayıt şəhərində dövlət komitəsinə 20 hektara yaxın yeni ərazi də ayrılıbdır. O istiqamətdə də fəaliyyət göstərilir. Gələn illərdə orada da tikintiyə başlamaq nəzərdə tutulub.

**Prezident İlham ƏLİYEV:** İndi Bakı şəhərində yataqxanalar boşaldılır. Bu yataqxanaların bir çoxu qəzalı vəziyyətdədir. Onların taleyi necə olacaq, söküləcəkmi, təmir olunacaqmı? Siz bu məsələ ilə məşğul olmusunuz, yoxsa yox?

**Rövşən RZAYEV:** Bəli. Biz çalışırıq ki, bütün yataqxanalardan məcburi köçkünləri tamamilə köçürək. Biz yataqxanaları rayon icra hakimiyyətlərinə və Əmlak Komitəsinə təhvil veririk.

**Prezident İlham ƏLİYEV:** Onların vəziyyətinə də baxmaq lazımdır. Qəzalı vəziyyətdə olan yataqxanalar sökülməlidir və onların yerində yeni binalar tikilə bilər.

**Rövşən RZAYEV:** Möhtərəm cənab Prezident, deyə bilərəm ki, bütün yataqxanalar həqiqətən də qəzalı vəziyyətdədir, bu, onları bərpa etməyə imkan verməyəcək. Yəqin ki, sökülüb yerində yeni binalar tikiləcək.

**Prezident İlham ƏLİYEV:** Gələn ilin proqramı haqqında məruzə edin.

**Rövşən RZAYEV:** Gələn ilin proqramını biz üç variantda işləmişik. İcazənizlə, mən Sizə bu variantları bir-bir məruzə edim. Deməli, biz gələn il Abşeron rayonunda əlavə olaraq 1890 ailəlik, Goranboy rayonunda isə 552 ailəlik qəsəbələr sala bilərik. Bunlar üç variantdır, Sizin diqqətinizə çatdırırıq, tapşırıqlarınızı gözləyəcəyik. Gəncə şəhərində 1512 ailəlik qəsəbə sala bilərik. Bunların hamısının vəsaiti Sizin tərəfinizdən ayrılıbdır. Qaradağ rayonunun "Ümid" qəsəbəsində də 500 ailəlik şəhərcik sala bilərik. Şəmkir rayonunun ərazisində 375 məcburi köçkün ailəsi üçün yeni qəsəbə tikə bilərik. Bu, bizim təqdim edə biləcəyimiz ikinci variantdır. Üçüncü variantımız - məcburi köçkünlər üçün Binəqədi rayonunda ayrılmış torpaqlarda 800 ailəlik, Gəncə şəhərində 1512 ailəlik və Samux rayonunun ərazisində 200 ailəlik qəsəbələr sala bilərik.

**Prezident İlham ƏLİYEV:** Əgər biz bunu həll etsək, ümumiyyətlə, nə qədər köçkün ailəsi yerləşdiriləcək?

**Rövşən RZAYEV:** Bununla bağlı biz üç variantda sənəd hazırlamışıq, icazənizlə, diqqətinizə təqdim edim. Birinci variantda toplam 6989 ailənin, ikinci variantda 6934 ailənin, üçüncü variantda isə 7059 ailənin yerləşdirilməsi nəzərdə tutulub.

**Prezident İlham ƏLİYEV:** Məncə, biz üçüncü variant üzərində dayanmalıyıq. Gələn il biz köçkünləri mümkün qədər çox yerləşdirməliyik. Siz bu proqrama yenidən baxın, xüsusilə Bakı və Sumqayıt şəhərlərini nəzərə alın. Çünki ən çox köçkünlərin məskunlaşdığı şəhərlər Bakı və Sumqayıtdır. İndi biz bölgələrdə vəziyyəti böyük dərəcədə yaxşılaşdıra bilmişik. 2007-ci ildə bütün çadır şəhərcikləri ləğv edildi və Azərbaycanın rayonlarında 100-dən çox şəhərcik salınmışdır. Ona görə bu proqramı mən bütövlükdə təsdiqləyirəm. Ancaq buna əlavələr edilməlidir, daha böyük həcmdə evlər tikilməlidir. O ki qaldı buna lazım olan vəsaitə, biz vəsait taparıq. Çünki bu, bizim üçün ən prioritet məsələdir.

# Müstəqil Azərbaycan Respublikası hər bir soydaşımız üçün əsl qürur mənbəyinə çevrilib

Oktyabrın 18-də Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Riyaziyyat və Mexanika İnstitutunda (RMİ) Dövlət Müstəqilliyi Günü ilə əlaqədar tədbir keçirilib.






AMEA-dan AZƏRTAC-a bildirilib ki, tədbirdə Riyaziyyat və Mexanika İnstitutunun direktoru, akademiyanın müxbir üzvü Misir Mərdanov ötən 28 il ərzində Azərbaycanın əldə etdiyi nailiyyətlərdən danışıb, ölkənin uğurlu inkişafı sayəsində dövlətçilik ənənələrimizin möhkəmləndiyini, iqtisadi və siyasi gücümüzün artdığını qeyd edib. Diqqətə çatdırıb ki, müstəqil Azərbaycan Respublikası bu gün hər bir soydaşımız üçün əsl qürur mənbəyinə çevrilib.

Milli Məclis Sədrinin müavini Bahar Muradova çıxış edərək Dövlət Müstəqilliyi Gününün yaranma tarixi barədə məlumat verib. O, müstəqilliyin ilk illərində Azərbaycanın dərin siyasi, iqtisadi və sosial böhranla yanaşı, Ermənistanın hərbi təcavüzü, xalqımıza qarşı həyata keçirilən etnik təmizləmə siyasəti ilə üzləşdiyini xatırladıb. Qeyd edib ki, 1918-ci il mayın 28-də müsəlman Şərqində ilk olaraq Azərbaycan dövlət müstəqilliyi əldə edib, demokratik cümhuriyyət qurub. Təəssüf ki, demokratik dövlətimiz cəmi 23 ay yaşadı. Lakin uzun illər xalqın azadlıq, müstəqillik arzuları sarsılmadı. Nəhayət, 70 il sonra, 1991-ci il oktyabrın 18-də Azərbaycan yenidən müstəqillik qazandı. İlk vaxtlar ciddi problemlər yaşayan Azərbaycanda xalqı Ulu Öndər Heydər Əliyevi təkidlə yenidən hakimiyyətə gətirdi və dövlətimiz dahi rəhbərin düşünülmüş və uzaqgörən siyasəti nəticəsində yenidən müstəqillik yoluna qədəm qoydu.

Bahar Muradova vurğulayıb ki, Ümummilli Lider Heydər Əliyev tərəfindən həyata keçirilən milli dövlətçilik, azərbaycançılıq ideologiyasının formalaşdırılması siyasətinin nəticəsi olaraq qısa dövrdə dövlətimizin hüquqi-sosial bazası yaranıb, müstəqilliyi möhkəmlənib, dünya birliyinə inteqrasiyası istiqamətində ciddi addımlar atılıb. Ulu Öndərin əsasını qoyduğu siyasi və iqtisadi kursun, cəmiyyət həyatının bütün sahələrini əhatə edən islahatların Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində son illər Azərbaycan dünyada qabaqcıl ölkələr sırasına çıxıb, iqtisadi inkişaf tempinə görə lider dövlətlərdən birinə çevrilib.

"Bu gün regionda heç bir irimiqyaslı layihə Azərbaycanın iştirakı və razılığı olmadan həyata keçirilmir" deyən Milli Məclis Sədrinin müavini "Əsrin müqaviləsi" çərçivəsində reallaşan Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri ilə neftimizin dünya bazarına ixracının başlandığını qeyd edib. Bildirib ki, bu kəmər həm Cənubi Qafqazda təhlükəsizliyin təmin olunmasında, həm də xalqımızın daha firavan yaşamasında mühüm rol oynayır.

Tədbirdə RMİ-nin Həmkarlar İttifaqı Komitəsinin sədri, dosent İradə Mirzəzadə və digər çıxış edənlər 28 il əvvəl Azərbaycanın dövlət müstəqilliyinin bərpa edilməsini xalqımızın tarixində böyük hadisə kimi qiymətləndirib, ölkənin əldə etdiyi tarixi uğurlar barədə fikirlərini bölüşüblər.

# YAP İcra Katibliyində Dövlət Müstəqilliyi Günü münasibətilə gənc memarların yaradıcılıq sərgisi keçirilib

Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi Günü ilə əlaqədar oktyabrın 18-də Yeni Azərbaycan Partiyasının İcra Katibliyində gənc memarların yaradıcılıq sərgisi keçirilib.

AZƏRTAC xəbər verir ki, sərginin açılış mərasimində çıxış edən YAP icra katibinin müavini, Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov 18 Oktyabr - Dövlət Müstəqilliyi Günü münasibətilə təbriklərini çatdırıb. O bildirib ki, Azərbaycan xalqı xoşbəxtdir ki, onun müstəqil dövləti var. Dünyada 3 minə qədər xalqın olduğunu deyən YAP icra katibinin müavini vurğulayıb ki, onların yalnız 200-nün dövləti var. Bu mənada Azərbaycan xalqı xoşbəxtdir.

Azərbaycanın müstəqilliyə gedən yolunun çox çətinliklərdən keçdiyini deyən S.Novruzov qeyd edib ki, 1991-ci ildə müstəqilliyimiz elan olunan zaman cəmiyyətimizdə vəziyyət normal deyildi. Belə ki, 1990-cı illərin əvvəlində Azərbaycan dərin siyasi, sosial-iqtisadi böhran keçirirdi, ölkədə xaos, anarxiya baş alıb gedirdi, digər tərəfdən, torpaqlarımız Ermənistan tərəfindən işğal olunurdu. Azərbaycan məhv olmaq təhlükəsi ilə üz-üzə qalmışdı. Belə bir şəraitdə xalqımız nicat yolunu Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıtmasında görürdü. Həmin dövrdə Azərbaycanın anarxiya, parçalanmaq və məhv olmaq təhlükəsi, iqtisadi tənəzzül, beynəlxalq təcrid ilə üzləşdiyini diqqətə çatdıran icra katibinin müavini Ümummilli Lider Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra ölkəmizin bu bəlalardan xilas olaraq inkişaf yoluna qədəm qoyduğunu, ictimai-siyasi sabitliyin bərpa edildiyini, respublikamızda mühüm siyasi və iqtisadi islahatların həyata keçirildiyini, neft strategiyasının reallaşdırıldığını, cəbhədə atəşkəsin əldə olunduğunu, nizami ordu quruculuğu prosesinə başlandığını, cəmiyyətin inkişafı üçün fundamental əsasların yaradıldığını bildirib.

Qeyd edilib ki, Ulu Öndərin işləyib hazırladığı müasir, müstəqil dövlət quruculuğu konsepsiyası müasir Azərbaycanın uğurlarının bünövrəsində dayanaraq gələcək inkişafın, misli görünməmiş uğurların əsasını qoyub. Bu gün Heydər Əliyev siyasəti Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Prezident İlham Əliyevin uğurlu siyasəti nəticəsində Azərbaycan ötən illər ərzində böyük inkişaf yolu keçib, iqtisadiyyat artıb, əhalinin sosial rifahı yüksəlib, ölkəmizin beynəlxalq müstəvidə mövqeyinin gücləndirilməsi istiqamətində mühüm addımlar atılıb. Bu gün müstəqilliyimizin 28-ci ildönümünü qeyd edirik və bununla qürur duyuruq. Prezident İlham Əliyev öz siyasəti ilə dövlətimizin və xalqımızın maraqlarını ən yüksək səviyyədə qoruyur. Buna görə də ötən illər ərzində müstəqil dövlətimiz güclənib, beynəlxalq müstəvidə nüfuzu əhəmiyyətli dərəcədə artıb. Dövlət başçısının həyata keçirdiyi islahatlar çox uğurlu nəticələr verir. Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva öz fəaliyyəti ilə dövlətimizin daha da güclənməsinə xidmət edir. Onun xüsusilə sosial sahədə həyata keçirdiyi tədbirlər xalqımız tərəfindən yüksək qiymətləndirilir. Müstəqil dövlətimizin güclənməsində Yeni Azərbaycan Partiyası və onun üzvləri də fədakarlıq göstərir.

Bu sərginin də rəmzi məna daşıdığını deyən S.Novruzov vurğulayıb ki, burada gənc memarlar Azərbaycanın gələcəyini necə gördükləri haqqında ekspozisiya təqdim edirlər. Bu yaradıcılıq nümunələri Bakı Mühəndislik Universitetinin tələbələri tərəfindən hazırlanıb. O, əminliyini ifadə edib ki, bu gənclər öz fəaliyyəti ilə gələcəkdə müstəqil ölkəmizə layiqincə xidmət edəcəklər.

Tədbirdə çıxış edən Bakı Mühəndislik Universitetinin rektoru Havar Məmmədov rəhbərlik etdiyi ali məktəbin fəaliyyəti haqqında məlumat verib. O deyib ki, bu sərgidə universitetin 27 tələbəsinin 40-a yaxın əl işi təqdim olunur. Rektor sərginin təşkilinə görə Yeni Azərbaycan Partiyasına təşəkkür edib.

Tədbirdə həmçinin Bakı Mühəndislik Universitetinin tələbələri, gənc memar-dizaynerlər Əli Həsənbəyli və Jalə Əhmədova çıxış ediblər.

Sonra sərgidə əl işləri təqdim olunan gənc memar-dizaynerlərə sertifikatlar təqdim olunub.

# Şamaxı rayonunda "ASAN xidmət" mərkəzinin layihələndirilməsi və tikintisinin başa çatdırılması ilə bağlı tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Şamaxı rayonunda "ASAN xidmət" mərkəzinin layihələndirilməsi və tikintisinin başa çatdırılması məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 15 yanvar tarixli 890 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində digər layihələr üzrə dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.25.1-ci yarımbəndində göstərilmiş məbləğin 20 335 000 (iyirmi milyon üç yüz otuz beş min) manatı Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 oktyabr 2019-cu il*

# Azərbaycan energetiklərinin təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycanda energetika sahəsində səmərəli fəaliyyətlərinə görə aşağıdakı şəxslər təltif edilsinlər:

**3-cü dərəcəli "Əmək" ordeni ilə**

Babayev Məmmədhəsən Cəbir oğlu
Cəfərov Tahir Dəmir oğlu
Quliyev Şirin İsmayıl oğlu
Yusifov Üzeyir Milan oğlu

**"Tərəqqi" medalı ilə**

Abzərov Mübariz Əli oğlu
Baxışov Qeysər Qəzənfər oğlu
Ələkbərov Rauf Həsən oğlu
Əliyev Həsənbala İskəndər oğlu
Gözəlov Eyyub Xamməmməd oğlu
Hatəmi Tomrid Fərzulla oğlu
Xəlilov Xeyrulla Musa oğlu
İsayev Abusalat Fərhad oğlu
Qədimov Valeh İsmayıl oğlu
Mitsuyuki Sato
Morimitsu Masao Yasuo
Musayev Rəşid Nurəddin oğlu
Ocaqov Sübhi Daşdəmir oğlu
Sadıqov Ağasəməd Mirzəhüseyn oğlu
Sadıqova Həvva Tahir qızı
Süleymanlı Araz Süleyman oğlu
Şəfiyev Hakim Xəlil oğlu
Tağıyev Vaqif Qoşunəli oğlu
Vəliyeva Şəfa Aslan qızı.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 oktyabr 2019-cu il*

**Dövlət başçısına minnətdarlıq**

# Cənab Prezident, Sizin rəhbərliyinizlə müqəddəs Vətənimizin, milli dövlətçiliyimizin, Vətən elminin, milli ziyalılığın böyük addımlarla irəliləməsinə yorulmadan və məsuliyyətlə xidmət etmək, var qüvvə ilə çalışmaq dərk olunmuş böyük borcun əməli ifadəsidir

## Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə

*Möhtərəm cənab Prezident!*

İctimai-siyasi və elmi mühitdəki fəaliyyətimlə əlaqədar məni ölkəmizin ən yüksək ordenlərindən biri olan Birinci dərəcəli Vətənə xidmətə görə ordeni ilə təltif etdiyinizə görə Sizə dərin minnətdarlığımı bildirirəm.

Azərbaycan xalqının Ümummilli Lideri, görkəmli dövlət xadimi Heydər Əliyevin əsasını qoyduğu və Sizin daha da inkişaf etdirib möhkəmləndirdiyiniz ictimai-siyasi sabitliyin, ardıcıl olaraq aparmaqla davam etdirməkdə olduğunuz genişmiqyaslı islahatların nəticəsi olaraq yaranmış möhtəşəm Yeni Azərbaycan hər bir Vətən övladı üçün böyük qürur mənbəyidir.

Sizin dönməz iradəniz və çoxcəhətli yorulmaz fəaliyyətinizlə müstəqil Azərbaycan Respublikası müasir dünyada möhkəm sabitliyin və hərtərəfli inkişafın rəmzinə çevrilmişdir. Müasir dünyanın gözü qarşısında Azərbaycan Respublikasının inkişaf etməkdə olan ölkələr sırasından inkişaf etmiş dövlətlərin ailəsinə daxil olması Sizin böyük iradənizin, uzaqgörənliyinizin və səylərinizin böyük bəhrəsidir. Mübariz ordumuzun Lələtəpə və Naxçıvan - Qızılqaya yüksəkliklərində Azərbaycan bayrağını ucaltması və böyük əraziləri düşmən əsarətindən geri qaytarması xalqımızda Dağlıq Qarabağın məhz Sizin rəhbərliyinizlə azad olunacağına inamı daha da qüvvətləndirmişdir.

Sizin məqsədyönlü, düşünülmüş fəaliyyətinizin nəticəsi olan Bakı-Tbilisi-Qars Dəmir İpək yolu, şimal-cənub və şimal-şərq şose yolları sayəsində ölkəmizdə yaranmış geniş tranzit imkanları Azərbaycana XXI əsrin İpək yolu sivilizasiyasını yaradan ölkələrdən biri olmaq statusunu qazandırmışdır. Azərbaycanda ardıcıl olaraq keçirilməkdə davam edən sivilizasiyalararası, mədəniyyətlərarası, dinlərarası dialoq forumları ölkəmizdə elmin və milli mədəniyyətin inkişaf etdirilməsinə təkan verən və milli-mənəvi sərvətlərimizi dünya xalqlarına çatdıran, böyük elmə geniş meydan açan mühüm hadisələrdir.

İnkişaf etmiş müstəqil Azərbaycan kimi qüdrətli bir ölkədə yaşayıb-yaratmaq ölkəmizin hər bir vətəndaşı kimi, yaradıcı ziyalılar, elm adamları üçün də qürur dolu bir həyat yaşamaq deməkdir. Ölkəmizdə elm, təhsil, ədəbiyyat və incəsənət sahəsində gedən islahatlar, baş verən ciddi yeniləşmə prosesləri və böyük dəyişikliklər yaradıcı fəaliyyətin bütün potensialını meydana qoymaq üçün geniş imkanlar açmışdır. Azərbaycançılıq ideyası, milli-mənəvi dəyərlərə və köklərə qayıdış, habelə bəşərilik və dünyəvilik kimi dəyərlərin ön mövqeyə çıxarılması elmin, təhsilin, mədəniyyətin və ədəbiyyatın yeni çağırışlarını müəyyən etmişdir.

Azərbaycan elmi hazırda müasir cəmiyyətin, qlobal proseslərin elmi əsaslarla dərk olunması yolu ilə ölkəmizin reallıqlarının dərindən təhlil edilib qiymətləndirilməsi və proqnozlaşdırılması əsasında Azərbaycan Respublikasını daha böyük hədəflərə çatdırmaq yollarındakı çoxcəhətli fəaliyyətinizə kömək etmək üçün bundan sonra da dinamik iş aparmaq naminə səfərbər olmağa, bütün səylərini cəmləşdirməyə borcludur.

Təltif etdiyiniz Birinci dərəcəli Vətənə xidmətə görə ordeninin adında və məzmununda ifadə edildiyi kimi, möhtərəm Prezident, Sizin rəhbərliyinizlə müqəddəs Vətənimizin, milli dövlətçiliyimizin, Vətən elminin, milli ziyalılığın hərtərəfli surətdə, böyük addımlarla irəliləməsinə yorulmadan və məsuliyyətlə xidmət etmək, var qüvvə ilə çalışmaq və yenə də çalışmaq dərk olunmuş böyük borcun əməli ifadəsidir.

*Möhtərəm cənab Prezident!*

Sizə müstəqil Azərbaycanın inkişafı yollarındakı çoxcəhətli, yorulmaz və məqsədyönlü fəaliyyətinizdə daha böyük uğurlar və həyatda ən böyük nemət olan möhkəm cansağlığı arzulayıram.

*Dərin hörmətlə,*

***İsa HƏBİBBƏYLİ,***
***Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, Milli Məclisin Elm və təhsil komitəsinin sədri, akademik***

*18 oktyabr 2019-cu il*

# Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin növbəti iclası keçirilib

Oktyabrın 18-də Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin növbəti iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, komitə sədri Aqiyə Naxçıvanlı iclasda Prezident İlham Əliyevin qanunvericilik təşəbbüsü ilə komitəyə daxil olmuş Uşaqların cinsi istismardan və cinsi zorakılıqdan müdafiəsi haqqında Avropa Şurası Konvensiyasının təsdiq edilməsi barədə qanun layihəsinin müzakirə olunacağını bildirdi.

Qeyd olundu ki, sənəd Avropa Şurasının dövlət və hökumət rəhbərlərinin Üçüncü Zirvə toplantısında qəbul edilmiş Fəaliyyət Planına, İnsan hüquq və azadlıqlarının müdafiəsi haqqında Konvensiyaya, BMT-nin Uşaq hüquqları haqqında və Transmilli mütəşəkkil cinayətkarlığa qarşı konvensiyalarına, eləcə də digər beynəlxalq hüquq normalarına istinad olunaraq hazırlanıb.

Komitə sədri onu da vurğuladı ki, Uşaqların cinsi istismardan və cinsi zorakılıqdan müdafiəsi haqqında Avropa Şurasının Konvensiyası Prezident İlham Əliyevin qərarı ilə verilmiş Azərbaycan Respublikasının müvafiq bəyanatı ilə birlikdə təsdiq olunması üçün Milli Məclisə təklif olunub. Bəyanatda deyilir: "Azərbaycan Respublikası bəyan edir ki, konvensiyanın müddəaları Ermənistan Respublikasına münasibətdə Azərbaycan Respublikası tərəfindən tətbiq edilməyəcəkdir. Azərbaycan Respublikası bəyan edir ki, o, Ermənistan tərəfindən işğal olunmuş ərazilərdə konvensiyanın müddəalarının həyata keçirilməsinə (həmin ərazilər işğaldan azad olunanadək) təminat verilmir. Bu bəyanatın 1-ci və 2-ci bəndinin müddəalarını istənilən zaman dəyişdirmək və ya ləğv etmək hüququnu Azərbaycan tərəfi özündə saxlayır və digər tərəflər hər hansı bu cür dəyişikliklər və ya ləğvetmələr haqqında yazılı şəkildə məlumatlandırılacaqlar".

Çıxış edən komitə üzvləri Sahibə Qafarova, Sədaqət Vəliyeva, Tahir Rzayev, Ağacan Abiyev, Dilarə Cəbrayılova milli maraqlarımızın qorunmasına xidmət edən sənədin uşaqların gələcəyində böyük əhəmiyyətə malik olacağını söylədilər.

Müzakirələrin sonunda qanun layihəsi Uşaqların cinsi istismardan və cinsi zorakılıqdan müdafiəsi haqqında Avropa Şurasının Konvensiyasına dair Azərbaycan Respublikasının müvafiq bəyanatı ilə birgə Milli Məclisin plenar iclasına baxılmaq üçün tövsiyə olundu.

Tarixin ən qüdrətli Azərbaycanının möhtəşəm 16 ili

# İslahatçı ölkənin islahatçı Prezidenti

**Oktyabrın 15-də Prezident İlham Əliyevin yanında keçirilən iqtisadi müşavirədə səslənən fikirlər və dövlət başçısının vurğuladığı bir sıra məsələlər ölkədə bütün sahələr üzrə aparılan islahatların uğurlu nəticələr verdiyini təsdiqlədi. Uğurları dəyərləndirən və qarşıdakı hədəfləri müəyyənləşdirən Prezident inkişafın daha geniş vüsət alması üçün ortaya çox güclü siyasi iradənin qoyulduğunu diqqətə çatdırdı və bəyan etdi ki, Azərbaycanı müasir, sürətlə inkişaf edən, şəffaflığı öz siyasətində bayraq edən ölkə kimi görmək istəyir və buna da nail olunacaq. Heç bir qüvvə bu işdə Azərbaycana mane ola bilməz.**
**Dövlət başçısının müşavirədə səsləndirdiyi fikirlərlə bağlı açıqlamalar verən Milli Məclisin deputatları da hesab edirlər ki, Prezidentin ciddi tapşırıqları qarşıdakı müddətdə sosial-iqtisadi uğurların daha da geniş vüsət alacağını şərtləndirdi.**



## Prezident yeni sosial layihələrin müjdəsini verdi

**Eldar İBRAHİMOV,**
*Milli Məclisin Aqrar siyasət komitəsinin sədri, YAP İdarə Heyətinin üzvü:*



- Bugünkü reallıqlar və faktlar sübut edir ki, aparılan düzgün və məqsədyönlü siyasətin bəhrəsi olaraq Azərbaycan Cənubi Qafqazın lider dövlətinə çevrilməklə, dünyanın davamlı inkişaf edən ölkəsidir.

Son 16 ildə Prezident İlham Əliyevin həyata keçirdiyi məqsədyönlü sosial-iqtisadi siyasət nəticəsində Azərbaycanın dünyada yeri və rolu möhkəmlənməklə yanaşı, ölkədə əhalinin sosial vəziyyətinin yaxşılaşmasına, hüquq və azadlığın ən yüksək səviyyədə təmin edilməsinə nail olundu. Hətta Azərbaycan bir sıra qabaqcıl ölkələrin əldə edə bilmədikləri uğurları qazana bildi.

Bu gün ölkəmizin iqtisadi uğurları göz önündədir. Məhz bu uğurların sayəsində sosial islahatlar reallığa çevrilməkdədir. Bu il dövlət başçısının təşəbbüsü və tapşırıqlarına əsasən bir çox sahələri əhatə edən sosial islahatlar həyata keçirilib və bu tədbirlər dövlət büdcəsi hesabına maliyyələşdirilib. Nəticədə büdcədə müəyyən struktur dəyişiklikləri baş verib və büdcənin cari xərcləri, yəni, sosialyönümlü xərcləri 3,7 milyard manat artıb, investisiya dövlət əsaslı vəsait qoyuluşu xərcləri isə azalıb.

Son illərdə aqrar sektorun inkişafına da böyük diqqət göstərilir. Prezident İlham Əliyevin yanında keçirilən iqtisadi müşavirədə də dövlət başçısı kənd təsərrüfatının inkişafı istiqamətində aparılan işləri, həyata keçirilən layihələri dəyərləndirərkən qeyd etdi ki, son illər kənd təsərrüfatına da böyük investisiyalar qoyulub və bu sahənin inkişafı prioritet olaraq müəyyən edilib. Hətta cənab Prezident əvvəllər kənd təsərrüfatının inkişafı ilə bağlı atılan addımların o qədər də uğurlu nəticələr vermədiyinə təəccübünü də gizlətmədi: "Əvvəlki illərdə bir qədər təəccüblənirdim ki, nə üçün bu qədər investisiyaların müqabilində, bu qədər dəstəyin, subsidiyaların, güzəştli şərtlərlə verilmiş kreditlərin olduğu bir zamanda kənd təsərrüfatında artım 2-3 faiz idi. Ancaq hazırda bu sahədə də ciddi irəliləyiş müşahidə olunur. Beləliklə, kənd təsərrüfatı doqquz ayda 7 faizdən çox artmışdır".

Prezident, həmçinin gələn ilin büdcəsi ilə əlaqədar tapşırıqlar verərək diqqətə çatdırdı ki, 2020-ci ilin büdcəsi həm sosialyönümlü, həm də investisiyayönümlü olmalıdır. Cənab İlham Əliyevin fikirlərindən bəlli oldu ki, dövlət gələn il də ciddi sosial proqramlar icra edəcək, əhalinin yaşayış səviyyəsini yaxşılaşdırmaq üçün önəmli addımlar atılacaq. Yəni Prezident növbəti islahatların anonsunu verdi.

Bu gün hər bir Azərbaycan vətəndaşı Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasətin bəhrəsini öz həyatında, yaşadığı cəmiyyətdə görməkdədir. Bu isə bir daha təsdiq edir ki, Azərbaycan düzgün və işıqlı yoldadır. Məhz bu baxımdan Azərbaycan xalqı cənab Prezidentin daxili və xarici siyasətini birmənalı şəkildə dəstəkləyir, ona inanır və etibar edir. Bu belədir və təbii ki, bundan sonra da belə davam edəcək.

## Sosial müdafiə sahəsində nümunəvi ölkə

**Səttar MÖHBALIYEV,**
*Milli Məclisin deputatı, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri:*



- İstənilən dövlətin gücü, qüdrəti ilk növbədə onun iqtisadi potensialından asılıdır. Dayanıqlı inkişafın təmini üçün müəyyən edilən iqtisadi strategiyanın prioritetlərinin düzgün icrası sürətli yüksəliş üçün real zəmin formalaşdırır.

Son 16 ildə Azərbaycan iqtisadiyyatının üç dəfədən çox artması, ölkə iqtisadiyyatına 270 milyard dollardan çox sərmayə yatırılması, valyuta ehtiyatlarının 49 milyard dollara yüksəlməsi Prezident İlham Əliyevin yeni inkişaf konsepsiyasının uğurlarının real təcəssümüdür. Məhz bunun nəticəsidir ki, Azərbaycan hazırda güclü iqtisadiyyata, güclü orduya, dünya birliyində güclü mövqeyə sahib olmaqla yanaşı, güclü sosial və iqtisadi siyasətə malik olan ölkəyə çevrilib. Həyata keçirilən sosial-iqtisadi, eləcə də struktur islahatlarının nəticələri isə göz önündədir.

Prezident İlham Əliyev müşavirədə bu nailiyyətləri dəyərləndirərək vurğuladı ki, əsas vəzifə iqtisadi inkişafı şərtləndirən islahatları dərinləşdirməkdir. Bütövlükdə Azərbaycanda iqtisadi sahədə islahatlar uğurla gedir. Beynəlxalq aparıcı maliyyə qurumları bu uğurları hər zaman hesabatlarında göstərirlər. Dövlət başçısının Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, Asiya İnkişaf Bankı, Avropa İnvestisiya Bankı, Beynəlxalq Valyuta Fondu və digər aparıcı beynəlxalq maliyyə qurumlarının rəhbərləri ilə çoxsaylı görüşlər də deməyə əsas verir ki, ölkəmizdə aparılan islahatları yüksək dəyərləndirirlər.

Müşavirədə cənab Prezident 9 ayın göstəricilərini müsbət qiymətləndirdi, lakin bununla belə daha yüksək artıma nail olmaq üçün kifayət qədər imkanların olduğunu bəyan etdi. Həqiqətən də bu ilin ötən müddəti ərzində əldə edilən uğurlara nəzər yetirdikdə aydın şəkildə görərik ki, qeyri-neft sektorunda iqtisadi artım 3 faizdən, qeyri-neft sənayemiz 15 faizdən, kənd təsərrüfatı 7 faizdən çox artıb. Sahibkarlara 130 milyon manat kredit verilib.

Əlbəttə ki, qeyri-neft sektorunda iqtisadi artımın 3 faizdən çox olması şaxələndirmə ilə bağlı tədbirlərin müsbət nəticəsini verdiyini göstərir. Ancaq dövlət başçısı hesab edir ki, bu artım daha yüksək olmalıdır. Buna nail olmaq üçün isə kifayət qədər imkanlar, potensial var. Sadəcə olaraq bu potensialdan maksimum səmərə ilə istifadə edilməlidir.

Qeyri-neft sənayesinin 15 faizdən çox artması isə onu göstərir ki, son illərdə aparılan islahatlar, xüsusilə qeyri-neft sektorunun inkişafı ilə bağlı atılan addımlar öz bəhrəsini verməkdədir. Dövlət başçısı bu yüksək nəticənin dünya miqyasında rekord göstərici hesab olunduğunu vurğuladı.

Göründüyü kimi, 9 aylıq yekun ölkə rəhbərliyinin qeyri-neft sektorunun inkişafı sahəsində həyata keçirdiyi siyasətin özünü doğrultduğunu konkret faktlar əsasında təsdiqləyir.

Sosial sahədə də inqilabi yeniliklər baş verib. İlk dəfə olaraq ölkədə 9 ayda minimum əməkhaqqı və minimum pensiyalar 2 dəfə artıb. Minimum əməkhaqqı 250, minimum pensiyalar isə 200 manata yüksəlib. Prezidentin 2 böyük sosial paketi ilə 4 milyon 200 mindən çox insanın maddi vəziyyəti yaxşılaşıb.

Bütün bunlar cənab İlham Əliyevin siyasətinin mərkəzində vətəndaşın dayandığını təsdiqləyən reallıqlardır. Müşavirədə bu məsələyə də toxunan Prezident demişdir: "Bizim sosial siyasətimiz birmənalıdır. Dəfələrlə demişəm ki, siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Hesab edirəm ki, Azərbaycan sosial müdafiə sahəsində dünya miqyasında nümunəvi ölkədir. Həm minimum əməkhaqqı, pensiyalar artırılır, həm də özünüməşğulluq proqramı geniş vüsət alır. Bu il on mindən çox insan bu proqramla əhatə olunacaq".

Prezidentin çıxışından o da bəlli oldu ki, islahatların artan sürəti maaş və pensiyaların növbəti artımına da şərait yaradacaq.

Cari ilin 9 ayının yekunlarının müzakirəsi zamanı cənab Prezidentin gələcəyə aydın baxışını bir daha gördük. Hər kəsə bəlli oldu ki, dövlət başçısı yalnız təbii ehtiyatlara, enerji resurslarına deyil, qeyri-neft sektorunun inkişafına da xüsusi önəm verir. Ona görə də cənab Prezident bütün aidiyyəti qurumlara ciddi tapşırıq verdi. Qeyd etdi ki, istifadə olunmayan kifayət qədər ehtiyatlar var və bu ehtiyatlar aşkar edilməlidir. Elə edilməlidir ki, Azərbaycanda hər bir sahə şəffaf olsun və ən yüksək standartlara cavab versin.

Bu gün dünya miqyasında həm iqtisadi baxımdan inkişaf edən, həm də davamlı islahatlar aparan ölkələr sırasında Azərbaycanın da adının çəkilməsi əlbəttə ki, mühüm nailiyyətdir. Əldə edilən bu uğurlar və reallaşmaqda olan yeni-yeni sosial-iqtisadi layihələr onu deməyə əsas verir ki, 2019-cu ilin qalan dövründə də qarşıya qoyulan vəzifələr uğurla icra ediləcək, Azərbaycan iqtisadiyyatı öz inkişaf dinamikasını qoruyub saxlayacaq.

## Azərbaycan dünyanın ən islahatçı ölkələri sırasında yer alır

**Sahibə QAFAROVA,**
*Milli Məclisin deputatı:*



- Oktyabrın 15-də Prezident İlham Əliyevin yanında keçirilən iqtisadi müşavirədə dövlət başçısı ölkəmizin inkişafı ilə bağlı çox mühüm məsələləri diqqətə çatdırdı. Dövlət başçısı qeyd etdi ki, qeyri-neft sektorunda iqtisadi artım 3 faizdən çoxdur. Bu da onu göstərir ki, şaxələndirmə ilə bağlı ölkəmizdə həyata keçirilən tədbirlər öz nəticəsini verir. Bunu ölkəmizin qeyri-neft sənayesi ilə bağlı da deyə bilərik. Azərbaycanda neftdən kənar iqtisadiyyat üzrə innovativ əsaslı sənaye quruculuğu mühüm yer tutur. 2019-cu ilin 9 ayında ən yaxşı göstərici də məhz qeyri-neft sənayesində qeydə alınıb və qeyri-neft sənayemiz 15 faizdən çox artıb. Bu, onu göstərir ki, Azərbaycanda aparılan islahatlar, xüsusilə qeyri-neft sektorunun inkişafı ilə bağlı görülən genişmiqyaslı tədbirlər öz bəhrəsini verir.

Prezidentin nitqində diqqət çəkən əsas məqamlardan biri də Azərbaycanda həyata keçirilən islahatların əhəmiyyəti ilə bağlı idi. Ölkədə aparılan islahatların yüksək qiymətləndirildiyini bildirən cənab İlham Əliyev qeyd etdi ki, uğurlu islahatlar beynəlxalq aparıcı maliyyə qurumları tərəfindən də yüksək qiymətləndirilir. Bu gün Azərbaycan dünyanın ən islahatçı ölkələri sırasında yer alır. Prezident vurğuladı ki, islahatlar bundan sonra da ardıcıllıqla davam etdiriləcək. "Əsas vəzifəmiz iqtisadi inkişafı şərtləndirən islahatları dərinləşdirməkdir" deyə dövlət başçısı qeyd etdi.

Tam əminliklə deyə bilərəm ki, insanlar Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən islahatları yüksək qiymətləndirir, öz dəstəyini ifadə edirlər. Şübhə yoxdur ki, qarşıdakı dövrlərdə də Azərbaycanın sosial dövlət fəlsəfəsinə uyğun olaraq müvafiq tədbirlər davam etdiriləcək. Müşavirədə bildirildi ki, gələn ilin büdcəsi həm sosialyönümlü, həm də investisiyayönümlü olacaq və ciddi sosial proqramlar icra olunacaq. Bu isə ona dəlalət edir ki, əhalinin yaşayış səviyyəsinin daha da yaxşılaşdırılması istiqamətində tədbirlər gələn il də davam etdiriləcək.

***Rəşad BAXŞƏLİYEV, "Azərbaycan"***

# Məhkəmə-hüquq sistemində islahatlar yeni keyfiyyət mərhələsinə qədəm qoyur

**Hüquqi və demokratik dövlətin əsas atributlarından sayılan, insanların qanuni maraq və mənafelərinin qorunmasında başlıca instansiyalardan olan məhkəmə orqanlarının fəaliyyətinin davamlı şəkildə təkmilləşdirilməsi Azərbaycanın bütün dünyada müasir qlobal çağırışları nəzərə alan sivil ölkə kimi tanınmasını təmin edir. Respublikamızın sosial-iqtisadi inkişaf tempinin diktə etdiyi zərurətdən irəli gələrək məhkəmə-hüquq sistemində gerçəkləşdirilən ardıcıl islahatlar məhkəmələrin fəaliyyətində çevikliyin, səmərəliliyin, şəffaflığın yüksəldilməsinə, ümumilikdə, insan və vətəndaş məmnunluğunun təminatına xidmət edir.**

Xalqımızın Ümummilli Lideri, dünya miqyaslı şəxsiyyət Heydər Əliyev tərəfindən əsası qoyulan məhkəmə-hüquq islahatlarını son 16 ildə inamla davam etdirən Azərbaycan Prezidenti cənab İlham Əliyev sosial-iqtisadi uğurların miqyasına, demokratik proseslərin inkişaf tempinə adekvat olaraq məhkəmə-hüquq sisteminin fəaliyyətini tənzimləyən qanunvericiliyin liberallaşdırılmasını, məhkəmələrin fəaliyyətinin müasirləşdirilməsini vacib sayır. Ölkə rəhbərinin siyasi iradəsilə 2003-cü ildən etibarən Avropa Şurası və digər nüfuzlu beynəlxalq təşkilatların ekspertlərinin iştirakı ilə yaradılmış işçi qrupları tərəfindən hazırlanmış "Məhkəmələr və hakimlər haqqında", "Məhkəmə-Hüquq Şurası haqqında" yeni qanunlar, habelə "Hakimlərin Seçki Komitəsi haqqında Əsasnamə", "Hakim vəzifələrinə namizədlərin seçimi Qaydaları", Hakimlərin Etik Davranış Kodeksi məhkəmələrin fəaliyyətində davamlı müasirləşmənin əsasını qoymuşdur.

Məhkəmə hakimiyyətinin özünüidarə imkanları genişləndirilmiş, bu funksiyanı uğurla həyata keçirən Məhkəmə-Hüquq Şurası tərəfindən yeni regional məhkəmələrin yaradılmasına və hakimlərin sosial müdafiəsinin gücləndirilməsinə diqqət artırılmışdır. Bu istiqamətdə ilk mühüm addım dövlət başçısının 19 yanvar 2006-cı il tarixli "Azərbaycan Respublikasında məhkəmə sisteminin müasirləşdirilməsi və "Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" fərmanı olmuşdur. Çoxşaxəli məhkəmə islahatları üçün baza rolunu oynamış həmin fərmanla regionlarda yeni apelyasiya və inzibati-iqtisadi məhkəmələr, həmçinin Ədliyyə Akademiyası yaradılmışdır. Bundan əlavə, hakimlərin Etik Davranış Kodeksi hazırlanaraq təsdiqlənmiş, məhkəmələrdə İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedent hüququnun öyrənilməsi, məhkəmə təcrübəsində nəzərə alınması təmin olunmuş, hakimlərin sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində tədbirlər həyata keçirilmişdir.

Bölgələrdə hüquq institutlarının inkişafı məqsədilə 20-dək yeni məhkəmə, o cümlədən regional apelyasiya məhkəmələrinin təsis edilməsi əhalinin bu instansiyalara müraciət imkanlarını asanlaşdırmış, insanların Bakıya üz tutmasına ehtiyac qalmamışdır. Dövlət başçısının 2010-cu il 15 iyul və 9 avqust tarixli fərmanlarının icrası ilə bağlı ölkədə 4 yerli ağır cinayətlər məhkəməsi, habelə dövlət orqanları tərəfindən vətəndaşların pozulmuş hüquqlarının bərpası məqsədilə 7 inzibati-iqtisadi məhkəmə yaradılaraq fəaliyyətə başlamışdır.

Tarixən ədalət mühakiməsinin səmərəliliyi həm də hakimlərin yüksək mənəvi keyfiyyətləri, peşəkarlıqları ilə şərtlənmişdir. Hakimlər hüququ reallığa çevirən, insanların ədalət və hüquq haqqında fikirlərinə birbaşa təsir edən şəxslərdir. Ədalət mühakiməsini həyata keçirərkən qanunların tələblərini yerinə yetirmək, hakim fəaliyyətinin mənəvi və tərbiyəvi təsirini təmin etmək, ədalət mühakiməsinin adına xələl gətirən hərəkətlərdən çəkinmək, ədalətli və qərəzsiz olmaq hakim vəzifəsinin ana xəttini təşkil edir. Məhkəmə sisteminin fəaliyyətinin təkmilləşdirilməsi üzrə həyata keçirilən tədbirlər çərçivəsində bu tələblərə xüsusi diqqət yetirilir, vətəndaşların haqlı narazılığına səbəb olan neqativ hallara qarşı ciddi tədbirlər görülür. Son illərdə Məhkəmə-Hüquq Şurası tərəfindən hakim korpusunun fəaliyyəti prinsipial qiymətləndirilmiş, bu zaman hər bir hakimə fərdi yanaşılmış, onun bilik və peşəkarlığı ilə yanaşı, mənəvi keyfiyyətləri, insanlara qayğıkeş münasibəti əsas götürülmüşdür.

Azərbaycan Prezidenti cənab İlham Əliyevin 17 avqust 2006-cı il tarixli "Azərbaycan Respublikası məhkəmələri hakimlərinin sayının artırılması və məhkəmələrin ərazi yurisdiksiyasının müəyyən edilməsi haqqında" fərmanı ilə hakimlərin sayının 157 ştat artırılması da ədalət mühakiməsinin səmərəliliyinin yüksəldilməsinə imkan yaratmışdır. Bu islahatların sonrakı illərdə də davam etdirilməsi nəticəsində respublika üzrə hakimlərin sayı 2 dəfədən çox artırılaraq 600 nəfər müəyyən edilmişdir. Hakimlərin seçimi prosesi Hakimlərin Seçki Komitəsi tərəfindən test üsulu ilə, tamamilə obyektiv, şəffaf və demokratik şəraitdə həyata keçirilmiş, ümumilikdə 400-dən çox hakimliyə namizəd test üsulunda uğur qazanaraq bu vəzifəyə təyin olunmuşlar. Məhkəmə islahatları nəticəsində hakimlərin ən yüksək həddədək - müddətsiz təyinatı müəyyən olunmuş, habelə seçim prosedurları təkmilləşdirilmişdir. Bu seçki və təyinatların beynəlxalq standartlara tam cavab verdiyi, ədalətli və şəfafaf mexanizmlər əsasında reallaşdırıldığı Avropa Şurası və digər beynəlxalq təşkilatlar tərəfindən də etiraf olunmuş, Azərbaycan təcrübəsi digər ölkələrə nümunə kimi göstərilmişdir.

Ötən illərdə ədalət mühakiməsinin səmərəliliyinin artırılması ilə paralel şəkildə məhkəmə infrastrukturunun müasirləşdirilməsi də diqqət mərkəzində saxlanılmışdır. Dünya Bankının dəstəyilə həyata keçirilən "Ədliyyə sisteminin müasirləşdirilməsi" layihəsi çərçivəsində son illər məhkəmələr üçün inşa edilən inzibati binalar müasirliyi, rahatlığı, yeni texnologiyaları ilə seçilir. Son 10 ildə Bakının Yasamal, Sabunçu, Nərimanov rayonlarında, habelə Gəncə, Oğuz, Gədəbəy, Şəki, Qəbələ və İmişlidə yeni məhkəmə komplekslərinin inşa edilərək istifadəyə verilməsi cəmiyyətdə məhkəmə hakimiyyətinə olan inamı artırmış, ədalət mühakiməsinin səmərəliliyini yüksəltmişdir.

Azərbaycan Prezidenti cənab İlham Əliyevin 2014-cü il 13 fevral tarixli "Elektron məhkəmə" informasiya sisteminin yaradılması haqqında" sərəncamı isə "ASAN xidmət"in formalaşması ilə vətəndaş məmnunluğuna səbəb olan müasir, sivil və şəffaf xidmətlərin məhkəmə orqanlarının fəaliyyətində də geniş tətbiqinə imkan yaratmışdır. Hazırda ölkə üzrə məhkəmələrin 60 faizini əhatə edən bu sistem vətəndaşların məhkəmələrlə münasibətlərinin daha çevik və işlək mexanizmlər əsasında qurulmasına, işlərə baxılmasında qanunvericiliyin tələblərinə tam riayət olunmasına imkan yaratmaqla, operativliyi və şəffaflığı maksimum dərəcədə təmin edir. "Elektron məhkəmə" informasiya sisteminin tərkib hissəsi olan "Məhkəmənin Nəbzi: İdarəetmədə İnqilab" adlı layihə 2017-ci ildə Avropa Şurasının ekspertləri tərəfindən məhkəmə sistemində elektron idarəetmənin tətbiqi baxımından ən mütərəqqi layihə kimi qiymətləndirilərək mükafata layiq görülmüşdür.

Aparılan məhkəmə islahatları çərçivəsində cəza siyasətinin humanistləşdirilməsi, cəzanın tərbiyəvi mahiyyətinin önə çəkilməsi də mühüm addımlardan biri kimi qeyd olunmalıdır. Azərbaycan Respublikası Prezidentinin 10 fevral 2017-ci il tarixli "Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə" sərəncamı bu baxımdan tarixi əhəmiyyətli sənəd olmuşdur. Bu sahədə aparılacaq islahatlar üçün "strateji yol xəritəsi" rolunu oynayan sərəncam əsasında penitensiar müəssisələrin fəaliyyətinin təkmilləşdirilməsi, maddi-texniki bazasının gücləndirilməsi, cəzanı icra edən orqan və müəssisələrdə mövcud nöqsanların aradan qaldırılması, cinayət təqibi və cəzaların icrası sahəsində korrupsiyanı istisna edən şəraitin təmin olunması, müasir texnoloji vasitələrin tətbiqi təmin edilmiş, cəza siyasətinin humanistləşdirilməsi məqsədilə Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Probasiya Xidməti yaradılmışdır.

Azərbaycan Prezidenti cənab İlham Əliyevin 3 aprel 2019-cu il tarixli "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" fərmanı isə məhkəmə-hüquq sistemində, sözün əsl mənasında, inqilabi islahatların əsasını qoymuşdur. Fərmanda cəza siyasətinin humanistləşdirilməsi və cinayətlərin dekriminallaşdırılması üzrə tədbirlərin davam etdirilməsi; sahibkarların məhkəməyə müraciət imkanlarının asanlaşdırılması və sahibkarlıqla bağlı mübahisələrə müvafiq sahədə daha dərin hüquqi bilik və təcrübəsi olan hakimlər tərəfindən baxılmasını təmin etmək məqsədilə vergi və gömrük ödənişləri, məcburi dövlət sosial sığorta haqlarının ödənilməsi ilə bağlı yaranan mübahisələrə, habelə sahibkarlıq fəaliyyəti ilə əlaqədar digər məsələlərə dair işlər üzrə ixtisaslaşmış məhkəmənin yaradılması; hakimlərin müstəqilliyini təmin etmək məqsədilə məhkəmələrin fəaliyyətinə müdaxilənin qarşısının alınması mexanizmlərinin təkmilləşdirilməsi və belə müdaxiləyə görə məsuliyyətin artırılması; hakimlərin sosial müdafiəsinin gücləndirilməsi məqsədilə onların maddi təminatının əhəmiyyətli dərəcədə artırılması; məhkəmələrdə işlərin təsadüfi və avtomatik şəkildə elektron qaydada bölüşdürülməsi; məhkəmələrin fəaliyyətinin daha optimal şəkildə qurulması; ədalət mühakiməsinin keyfiyyətinin yüksəldilməsi və məhkəmələrdə işlərə baxılma müddətlərinin qısaldılması məqsədilə Azərbaycan Respublikasının məhkəmə sisteminə daxil olan məhkəmələrin hakimlərinin ümumi sayının daha 200 nəfər artırılması və digər mühüm tapşırıqlar əksini tapmışdır.

Hakimlərin sosial təminatının davamlı şəkildə yaxşılaşdırılması da ölkədə şəffaf və ədalətli məhkəmə sisteminin yaradılması istiqamətində aparılan islahatların səmərəliliyini yüksəldir. Xüsusi razılıq hissi ilə qeyd etmək lazımdır ki, dövlət başçısının 23 iyul 2019-cu il tarixli sərəncamı ilə təsdiq edilmiş "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanununda hakimlərin sosial-maddi təminatının gücləndirilməsi ilə bağlı mühüm müddəalar əksini tapmışdır.

*Qeyd olunanlar deməyə əsas verir ki, Azərbaycan Prezidenti cənab İlham Əliyevin yüksək siyasi iradəsi, səmərəli təşkilatçılığı ilə aparılan məhkəmə-hüquq islahatları cəmiyyətdə qanunçuluğun və ədalət mühakiməsinin səmərəliliyinin yüksədilməsi baxımından inqilabi yenilikləri təmin etmişdir. Mütərəqqi haldır ki, ictimaiyyətdə rəğbət doğuran bu islahatlar cəmiyyətin müasir inkişaf trendlərinə uyğun davam etdirilir, vətəndaş hüquq və azadlıqlarının qorunması dövlətin ali məqsədi kimi daim önə çəkilir.*

**Faiq QASIMOV,**
***Bakı Apelyasiya Məhkəməsinin Hərbi kollegiyasının sədri***

# Azərbaycan Respublikasının hüquq mühafizə orqanlarının gənc əməkdaşlarının birinci forumu keçirilib

Oktyabrın 18-də Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) Mədəniyyət Mərkəzində Azərbaycan Respublikasının hüquq mühafizə orqanlarının gənc əməkdaşlarının “Müstəqilliyimiz əbədidir, daimidir, dönməzdir” mövzusunda birinci forumu keçirilib.






AZƏRTAC xəbər verir ki, forumun məqsədi Ümummilli Lider Heydər Əliyev tərəfindən təməli qoyulan, Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu daxili və xarici siyasətə, o cümlədən müstəqilliyin, dövlətçiliyin, təhlükəsizliyin və iqtisadi mənafelərinin etibarlı qorunması işinə ölkənin hüquq mühafizə orqanlarında xidmət edən gənc əməkdaşların töhfə vermək əzminin daha da yüksəldilməsi, ölkədə sabitliyin, dövlət təhlükəsizliyinin, ictimai qayda və asayişin, həmçinin dövlət-vətəndaş həmrəyliyinin etibarlı təmin olunması sahəsində hüquq mühafizə orqanlarının qarşılıqlı fəaliyyətinin səmərəliliyinin artırılmasıdır.

Forumda Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hüquq mühafizə orqanları ilə iş və hərbi məsələlər, Gənclər siyasəti və idman məsələləri şöbələrinin müdirləri, hüquq mühafizə orqanlarının rəhbərləri, Milli Məclisin komitə sədrləri, Azərbaycanın Milli qəhrəmanları, təhlükəsizlik orqanlarının veteranları, Müdafiə, Gənclər və İdman nazirliklərinin, Xarici Kəşfiyyat, Xüsusi Dövlət Mühafizə, Dövlət Miqrasiya, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət xidmətlərinin, “ASAN xidmət”in, Gənclər Fondunun, Gənclər Təşkilatları Milli Şurasının rəhbərləri və əməkdaşları iştirak ediblər.

Əvvəlcə forum iştirakçıları Fəxri xiyabanda müasir müstəqil dövlətimizin memarı və qurucusu Ümummilli Lider Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə güllər düzüblər.

DTX-nin Mədəniyyət Mərkəzində keçirilən forum xalqımızın Ümummilli Lideri Heydər Əliyevin və Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş qəhrəman vətən övladlarının xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi və Dövlət himninin səslendirilməsi ilə başlayıb.

Sonra Azərbaycanın müstəqillik yolunu və dövlət quruculuğunu, sabitliyin və təhlükəsizliyin təmin olunması istiqamətində həyata keçirilən fəal hüquq mühafizə siyasətini əks etdirən film nümayiş olunub.

Azərbaycan Respublikası Prezidentinin Hüquq mühafizə orqanları ilə iş və hərbi məsələlər üzrə köməkçisi-şöbə müdiri Fuad Ələsgərov tədbir iştirakçılarını Dövlət Müstəqilliyi Günü münasibətilə təbrik edərək bildirib ki, belə bir forumun keçirilməsi gənc əməkdaşların səmərəli təmaslar qurmasına kömək göstərməklə yanaşı, onların müstəqilliyimizin və dövlətçiliyimizin əbədi, daimi və dönməz olması üçün üzərlərinə düşən vəzifələri hər zaman vicdanla yerinə yetirməyə hazır olduqlarını nümayiş etdirir.

Prezidentin köməkçisi qeyd edib ki, bu gün gənclər Azərbaycanda dövlət siyasətinin aktiv iştirakçısı və aparıcı qüvvəsidir. Son illər gənclərin ictimai fəallığı daha da yüksəlib, onların idarəetmədə rolu artıb. Hazırda hüquq mühafizə və xüsusi xidmət orqanlarında çalışan əməkdaşların yarısını gənclər təşkil edir və onların sayı ilbəil artmaqdadır. Azərbaycan Respublikasının Silahlı Qüvvələrində xidmət edən əsgər və zabitlərin böyük əksəriyyəti də gənclərdir. Onlar sərhədlərimizi qoruyur, düşmənlə üzbəüz mövqelərdə dayanırlar. Azərbaycan gəncləri cəmiyyətimiz üçün yeni olan könüllülük hərəkatının əsasını qoyublar. Artıq bu hərəkatın on minlərlə üzvü var.

“Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev gənclərə, onların təhsilinə və inkişafına, dövlət idarəçiliyinə gənc kadrların cəlb olunmasına hər zaman xüsusi önəm verirdi. Ümummilli Liderin özü gənc yaşlarından hüquq mühafizə orqanlarında çalışmışdı. Bu sahədə qazandığı təcrübə Ulu Öndərin müstəqil Azərbaycan dövlətçiliyinin gücləndirilməsi, xüsusilə müstəqilliyimizin ilk dövrlərində yaranmış xaos və hərc-mərcliyə son qoyulması, eləcə də hüquq mühafizə orqanlarının inkişafı istiqamətindəki misilsiz fəaliyyətində önəmli rol oynayıb”, - deyə Prezidentin köməkçisi vurğulayıb.

Gənclərə qayğının Prezident İlham Əliyevin də daim diqqət mərkəzində dayandığını qeyd edən Fuad Ələsgərov deyib ki, dövlətimizin başçısı gənclərimizi qayğılandıran məsələlərlə daim maraqlanır, dövlət orqanlarında, o cümlədən hüquq mühafizə sistemində rəhbər vəzifələrə gənc kadrların irəli çəkilməsinə üstünlük verir. Hər bir gəncin əsas vəzifəsinin müstəqilliyi möhkəmləndirmək olduğunu vurğulayan Prezident İlham Əliyev Azərbaycan gənclərinə inandığını və onlarla fəxr etdiyini bildirir.

Bu gün bacarıqlı və istedadlı gənc nəsil yetişdiyini diqqətə çatdıran Prezidentin köməkçisi deyib: “Gənclərin inkişafı, onların ölkə həyatının, dövlət quruculuğunun bütün sahələrində, eləcə də hüquqi sahədə və hərbi xidmətdə böyük uğurlar qazanması qürurverici haldır. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın gənclərə ünvanlanmış sözlərini xatırlatmaq yerinə düşər: “Zəngin, bilikli və dərin mənəviyyatlı, vətənpərvər gənclik olaraq formalaşmağınız gələcəyə inamımızı artırır, qəlbimizi qürur hissi ilə doldurur. Azərbaycanın gələcəyi məhz sizlərin bilik səviyyəsindən və müasir innovativ texnologiyalara yiyələnmək bacarığınızdan asılı olacaq”.

Fuad Ələsgərov son vaxtlar hüquq mühafizə orqanlarında da həyata keçirilən mühüm islahatlardan danışaraq bu istiqamətdə işlərin davam etdiriləcəyini bildirib. Prezident İlham Əliyevin bu il oktyabrın 15-də iqtisadi məsələlərə həsr olunan müşavirədə dediyi kimi, “Biz Azərbaycanı müasir, sürətlə inkişaf edən, şəffaflığı öz siyasətində bayraq edən ölkə kimi görmək istəyirik və buna nail olacağıq, heç kim bu işdə bizə mane ola bilməz”.

Qeyd olunub ki, Azərbaycanda dövlət orqanları ilə vətəndaşlar arasında münasibətlər yeni müstəvidə həyata keçirilir. Şəffaflığın təmin edilməsi və korrupsiyanın qarşısının alınması sahəsində müsbət mənada çox böyük dəyişikliklər baş verib. Dövlət orqanları-vətəndaş münasibətlərində inqilabi dəyişikliyə nail olunub. Buna misal olaraq “ASAN xidmət” və “DOST” mərkəzlərinin fəaliyyətlərini qeyd etmək olar.

“Bu gün yüksək intellektə malik və müstəqillik ənənələrinə sadiq əməkdaşlarla komplektləşdirilən hüquq mühafizə və təhlükəsizlik orqanlarında gənclərin rolu sürətlə artır. Dövlət orqanlarında fəaliyyət göstərən təlim-tədris qurumları, ixtisaslaşmış akademiyaların fəaliyyəti gənclərin davamlı və gələcək inkişafı üçün çoxsaylı imkanlar təmin edir. Hüquq mühafizə orqanlarında xidmət edən gənclər vətəndaşlarla sıx ünsiyyətdə olur və bununla dövləti təmsil edirlər. Bu da vətəndaşların dövlətə olan inamına təsir göstərir. Odur ki, hər bir əməkdaş operativ və düzgün qərar qəbul etmək bacarığına malik olmalıdır. Hüquq mühafizə orqanlarının əməkdaşları komanda şəklində işləməlidirlər”, - deyə Prezidentin köməkçisi vurğulayıb.

Ölkəmizdə xarici və bəzən də dövlətimizin müstəqilliyinə yönəlmiş daxili təhdidlər olduğunu və bununla mübarizə aparıldığını qeyd edən Fuad Ələsgərov forum iştirakçılarına müraciətlə deyib: “Siz gənclər bu reallıqları daim görməli, milli maraqları rəhbər tutmaqla, ölkədə və dünyada gedən ictimai-siyasi proseslərə adekvat qiymət verməyi bacarmalı, gəncliyin verdiyi üstünlüklərlə, çevikliyiniz və enerjinizlə üzərinizə düşən vəzifələri layiqincə yerinə yetirməlisiniz”.

Prezident İlham Əliyevin hüquq mühafizə orqanlarının inkişafını daim diqqətdə saxladığını, bu sahədə ixtisaslaşmış xüsusi proqramlar qəbul edildiyini, əməkdaşların maddi-sosial təminatının mütəmadi olaraq yaxşılaşdırıldığını vurğulayan Prezidentin köməkçisi bu forumun gənclər üçün faydalı müzakirə və ünsiyyət platforması olacağına əminliyini ifadə edib.

DTX-nin rəisi, general-leytenant Əli Nağıyev bildirib ki, əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulan daxili və xarici siyasət, o cümlədən təhlükəsizlik strategiyası Prezident, Ali Baş Komandan İlham Əliyevin müdrik və qətiyyətli rəhbərliyi ilə uğurla həyata keçirilir. Respublikamızın hüquq mühafizə orqanlarında xidmət edən gənc əməkdaşların bu strategiyaya töhfə vermək əzminin daha da yüksəldilməsi, bu orqanların qarşılıqlı fəaliyyətinin səmərəliliyinin artırılması, qazanılmış nailiyyətlər üzrə təcrübə mübadiləsinin gücləndirilməsi ilk dəfə keçirilən forumun əsas məqsədidir. Ulu Öndərin müdrik kəlamı - “Müstəqilliyimiz əbədidir, daimidir, dönməzdir” devizi ilə keçirilən forumun dahi şəxsiyyətin vaxtilə Azərbaycanın təhlükəsizlik orqanlarına rəhbərlik etdiyi dövrdə dəfələrlə çıxış etdiyi bu zalda təşkil olunması təsadüfi deyil. Azərbaycan xalqı müstəqillik yolunda illərlə mübarizə aparıb, minlərlə şəhid verib və nəhayət, iyirminci əsrin sonunda dövlət müstəqilliyini bərpa etməyə nail olub. Müstəqilliyin ilk illərində Azərbaycanı, xalqını düşdüyü fəlakətdən xilas etmək, dövlət müstəqilliyini qoruyub saxlamaq və onun dönməzliyinə təminat vermək, qardaş qırğınının qarşısını almaq, cinayətkar Ermənistanın işğalçılıq siyasətini dayandırmaq iqtidarında olan yeganə şəxsiyyət Ümummilli Lider Heydər Əliyev idi. Belə bir mürəkkəb şəraitdə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdan Ulu Öndərin rəhbərliyi ilə dövlət quruculuğunun, onun tərkib hissəsi olan hüquq mühafizə sisteminin və ordunun formalaşdırılması istiqamətində mühüm addımlar atıldı, normativ hüquqi baza təkmilləşdirildi, təhlükəsizlik şəraitində sürətli iqtisadi inkişafın bünövrəsi qoyuldu. Bu gün Prezident İlham Əliyev Ümummilli Liderin gənclər siyasətini uğurla davam etdirir. Dövlət başçısının milli inkişaf strategiyasında prioritet hədəflərdən olan insan kapitalının yaradılması istiqamətində Birinci vitse-prezident Mehriban Əliyeva da əvəzsiz xidmətlər göstərib.

“Hazırda Azərbaycan gəncliyinin ümumi dünyagörüşünün vətənpərvərlik, azərbaycançılıq, dövlətçilik, dünyəvilik, humanizm prinsipləri əsasında formalaşdırılması əsas meyara çevrilib. Gənclərin dini ekstremizm, radikalizm, beynəlxalq terrorçuluq kimi təhlükəli, zərərli təsirlərin altına düşməsinin qarşısının alınması başlıca vəzifələrdəndir. Hüquq mühafizə orqanlarında xidmət edən gənc əməkdaşlar qarşısında, həmçinin müstəqilliyimizin və ərazi bütövlüyünün qorunması, dövlətçiliyin inkişaf etdirilməsi, sabitliyin və təhlükəsizliyin etibarlı təmin olunması sahəsində ciddi vəzifələr dayanır. Dövlət Təhlükəsizlik Xidməti Azərbaycanın milli maraqlarına və təhlükəsizliyinə yönələn mümkün təhdidlərin qarşısının alınması məqsədilə zəruri qabaqlayıcı tədbirlərin görülməsi üçün digər dövlət və hüquq mühafizə orqanları ilə sıx əməkdaşlıq şəraitində fəaliyyət göstərir. Bugünkü forum da bu səmərəli əməkdaşlığın əyani nümunələrindən biridir”, - deyə Əli Nağıyev vurğulayıb.

Qeyd olunub ki, dövlət təhlükəsizliyi orqanlarında xidmət edən əməkdaşların 40 faizindən çoxunu gənclər təşkil edir. Onlar göstərilən etimadı şərəflə doğruldur və üzərlərinə düşən vəzifələri layiqincə yerinə yetirirlər.

Təhlükəsizlik orqanları üçün yüksəkixtisaslı kadrların hazırlığında 1998-ci ildə Ulu Öndər Heydər Əliyevin sərəncamı ilə yaradılmış DTX-nin Akademiyasının rolunu vurğulayan Əli Nağıyev əmin olduğunu bildirib ki, Ümummilli Liderin adını daşıyan ali təhsil ocağını bitirən hər bir gənc zabit onun peşəkarlıq məktəbinin davamçısı kimi öz layiqli yerini tutacaq. Bunun üçün hər bir əməkdaş, xüsusilə gənclər vətənə, dövlətə, Ali Baş Komandana sədaqətlə xidmət etməli, tutduğu vəzifəsindən asılı olmayaraq peşə andına və vəzifə borcuna məsuliyyətlə yanaşmalıdır.

Baş prokuror, I dərəcəli dövlət ədliyyə müşaviri Zakir Qaralov çıxışında tədbirin əhəmiyyətindən danışaraq qeyd edib ki, forum cəmiyyətimizin böyük hissəsini təşkil edən gəncliyimizin hüquq mühafizə orqanlarında təmsil olunan nümayəndələrinin bir araya gəlməsi, milli maraqlara xidmət edən aktual məsələlərin müzakirə olunması baxımından mühüm platformadır.

Xalqımızın müstəqillik uğrunda mübarizədə verdiyi qurbanlardan danışan Baş prokuror deyib ki, ötən əsrin 90-cı illərinin əvvəllərində hakimiyyətdə olmuş, bu gün də hakimiyyət xülyasında olan xəyanətkar və səriştəsiz qüvvələr həyati əhəmiyyətli islahatları nəinki reallaşdıra bildilər, əksinə, onların yarıtmaz fəaliyyəti nəticəsində respublika müstəqilliyini itirmək təhlükəsi və vətəndaş müharibəsi ilə üzbəüz qaldı. Erməni qəsbkarları tərəfindən torpaqlarımız işğal olundu. 1991-ci ildə əldə etdiyimiz müstəqilliyimizin ilk illərində Azərbaycanda hökm sürən hakimiyyətsizlik, hərc-mərclik, cinayətkarlığın artması həyatın bütün sahələrinə böyük zərbələr vurdu. Bütün bunlar ölkədə ictimai-siyasi vəziyyətin gərginləşməsinə gətirib çıxardı. Belə bir çətin, böhranlı məqamda xalqımız dünya şöhrətli siyasətçi Heydər Əliyevə üz tutdu. Xalqın tələbi ilə Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra vətəndaş müharibəsinin qarşısı alındı, genişmiqyaslı dövlət quruculuğu prosesinə başlanıldı. Azərbaycan məhz Ulu Öndərin qətiyyəti və müdrikliyi sayəsində öz müstəqilliyini qoruyub saxladı və bütün sahələrdə sürətli inkişafa qədəm qoydu. Bu siyasi kurs və strateji inkişaf konsepsiyası Prezident İlham Əliyev tərəfindən daha da zənginləşdirilərək uğurla davam etdirilir. Dövlət başçısının rəhbərliyi ilə həyata keçirilən siyasətin mərkəzində Azərbaycan vətəndaşı, onun qayğıları və mənafeyi dayanır. Sosial mahiyyəti ilə seçilən bu siyasətin sistemli və ardıcıl surətdə reallaşdırılması bütün sahələrdə nailiyyətlər qazanılmasına şərait yaradıb.

Ölkəmizdə uğurla reallaşdırılan dövlət gənclər siyasətindən, gənc kadrların müstəqilliyin qorunmasına və inkişafa verdiyi töhfələrdən danışan Zakir Qaralov deyib: “Bu gün dövlət başçısı İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın gündəlik diqqət və qayğısı nəticəsində gənclərin təhsili, beynəlxalq miqyaslı qəbul olunan rəqabətədavamlı mütəxəssis kimi yetişdirilməsi, müasir dünyaya inteqrasiya olunmaq imkanları yaradan biliklərə yiyələnməsi, bununla yanaşı, milli maraqları, dövlətçilik mənafeyini hər şeydən üstün tutmaları istiqamətində mühüm işlər görülür. Azərbaycanda həyata keçirilən gənclər siyasətinin təzahürlərindən biri də gənclərin dövlət orqanlarına işə qəbulunun müsabiqə yolu ilə daha aşkarlıq şəraitində, şəffaf prosedurlarla aparılmasıdır. Prezident İlham Əliyev qarşımızda prokurorluq orqanlarının dövlətçiliyə sadiq, qanunun aliliyinə hörmət edən, sağlam mənəviyyata, geniş dünyagörüşünə, yüksək nəzəri biliklərə malik gənclər hesabına yeni nəsil prokurorluq əməkdaşları ilə formalaşması vəzifəsi qoyub. Biz bu məsələyə xüsusi diqqət yetiririk. Hazırda prokurorluğun kadr korpusunun 70 faizi müsabiqə yolu ilə seçilmiş gənclərdən ibarətdir”.

Baş prokuror hüquq mühafizə orqanlarının gənc əməkdaşlarına tövsiyə edib ki, onlar üzərlərinə düşən məsuliyyəti tam dərk etməli, Prezident İlham Əliyevin ətrafında sıx birləşərək dövlətin və xalqın maraqlarının, ictimai-siyasi sabitliyin qorunması, cinayətkarlığa qarşı mübarizənin daha da gücləndirilməsi, qanunçuluğun və təhlükəsizliyin, insan hüquq və azadlıqlarının təmin edilməsi üçün qüvvə və bacarıqlarını əsirgəməməlidirlər.

Forumda çıxış edən vergilər naziri, 2-ci dərəcəli dövlət vergi xidməti müşaviri Mikayıl Cabbarov qeyd edib ki, Ulu Öndərin siyasi rəhbərliyə qayıdışı Azərbaycanı fəlakətdən qurtardı və ölkə iqtisadiyyatını inkişaf yoluna çıxardı. Hazırda Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz sürətlə inkişaf edir, həyata keçirilən islahatlar vergi sisteminə də müsbət təsirini göstərir.

Ölkəmizdə insan kapitalının formalaşması istiqamətində mühüm layihələr həyata keçirildiyini, savadlı gənc nəsil formalaşdığını vurğulayan nazir deyib ki, Vergilər Nazirliyində də kadrların böyük hissəsini gənclər təşkil edir. Yeni nəslin bilik və bacarıqları xüsusilə müasir informasiya-kommunikasiya texnologiyalarından daha səmərəli bəhrələnməyə imkan yaradır. Bugünkü gənclik qarşıya qoyulan bütün tapşırıqları yerinə yetirməyə hazırdır. Vergilər Nazirliyinin əsas məqsədi ölkəmizdə ədalətli rəqabət mühiti yaratmaq, bazar iqtisadiyyatının prinsiplərinə uyğun fəaliyyət göstərən, üzərinə düşən bütün öhdəlikləri yerinə yetirən vergi ödəyicilərinin fəaliyyətini tam həcmdə təmin etməkdir.

Dövlət müstəqilliyinin bərpasının ilk illərində ölkəmizdə yaranmış ağır vəziyyəti, Ulu Öndər Heydər Əliyevin xilaskarlıq missiyasını, vətəni və xalqı qarşısında müstəsna xidmətlərini xatırladan Daxili İşlər nazirinin müavini, polis general-leytenantı İsmət Əliyev deyib ki, suverenliyimizin qorunub saxlanmasında və möhkəmləndirilməsində, ölkəmizin hərtərəfli inkişafında gənclərimizin də çox böyük rolu olub. Əsası Ulu Öndərimiz tərəfindən qoyulan məqsədyönlü gənclər siyasətini bu gün Prezident İlham Əliyev uğurla davam etdirir. Gənclər dövlətin hərtərəfli qayğısı ilə əhatə olunub, onların inkişafına hər cür şərait yaradılıb.

Daxili işlər orqanlarında da gənc əməkdaşlara diqqət və qayğı ilə yanaşıldığını qeyd edən İsmət Əliyev bildirib ki, bu gün şəxsi heyətin 43 faizini yaşı 30-dək olan gənclər təşkil edir, 90 gənc əməkdaş rəhbər vəzifələrdə çalışır. Onlar cinayətkarlığa qarşı mübarizə, asayişin və təhlükəsizliyin qorunması kimi mühüm vəzifələrin öhdəsindən layiqincə gəlir. Cəmiyyətdə hüquq mühafizə sisteminə etimad getdikcə yüksəlir. Bu uğurları gözü götürməyən məkrli qüvvələr müxtəlif təxribata əl ataraq cəmiyyətdə çaşqınlıq yaratmağa, idarəçilik sisteminə etimadı sarsıtmağa çalışırlar. Bugünkü forum gənc əməkdaşların düşmən qüvvələrə qarşı mübarizədə səylərini birləşdirməsi baxımından da mühüm əhəmiyyətə malikdir.

Sonra tədbir hüquq mühafizə orqanlarının gənc əməkdaşlarının çıxışları ilə davam edib. Azərbaycanın Milli Qəhrəmanı Sahil Məmmədov, Baş Prokurorluğun əməkdaşı, ədliyyə müşaviri Toğrul Muxtarov, Dövlət Gömrük Komitəsinin əməkdaşı, gömrük xidməti mayoru Eldar Abbasov, Daxili İşlər Nazirliyinin əməkdaşı, polis leytenantı Səlimağa Pirəliyev, Ədliyyə Nazirliyinin əməkdaşı, III dərəcəli ədliyyə qulluqçusu Səbinə Hüseynova, Fövqəladə Hallar Nazirliyinin əməkdaşı, baş leytenant Sənan Nəsirli, Dövlət Sərhəd Xidmətinin əməkdaşı, baş leytenant Fərid Mehbalı, DTX-nin əməkdaşı Elşən Cəfərli çıxış edərək gənclərə göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya minnətdarlıqlarını bildiriblər. Qeyd olunub ki, hüquq mühafizə orqanlarında çalışan gənclər dövlət başçısının siyasi kursunu dəstəkləyir və onun ətrafında sıx birləşiblər. Onlar müstəqilliyimizə və dövlətçiliyimizə qarşı yönələn, sabitliyin pozulması niyyəti güdən hər hansı təxribatın qarşısını almağa hazırdırlar.

Daha sonra Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə forum iştirakçıları adından müraciət qəbul edilib.

Müraciətdə qeyd olunur ki, Azərbaycanın uğurlarını qısqanclıqla qarşılayan destruktiv qüvvələr tərəfindən cəmiyyətimizin təməl dəyərlərinin sarsıdılması, ictimaiyyət arasında hakimiyyət təmsilçilərinin və dövlət orqanlarının nüfuzdan salınması, təhqir və böhtan kampaniyasının aparılması üzrə sistemli iş həyata keçirilir. Məkrli qüvvələr öz çirkin məqsədlərinə çatmaq üçün yenidən cəmiyyətdə çaşqınlıq yaratmağa, dövlət idarəçilik sisteminə etimadı sarsıtmağa çalışırlar.

Prezidentə ünvanlanmış müraciətdə deyilir: “Düşmən qüvvələrin bu niyyətlərinə çatması mümkün deyil. Ona görə ki, onların qarşısında Sizin ölkəmizdə təhlükəsizliyin və ictimai asayişin təmin olunmasını etibar etdiyiniz hüquq mühafizə orqanları, o cümlədən vətənpərvər, dövlətinə və xalqına sadiq gənc əməkdaşlar dayanıb. Böyük zəhmət hesabına ölkəmizdə əldə olunmuş sabitliyin, əmin-amanlığın və firavanlığın qorunmasına görə məsuliyyətimizi dərindən dərk edirik. Biz gənclər vətənimizin daha da çiçəklənməsi və müstəqilliyimizin möhkəmləndirilməsi uğrunda apardığınız mübarizədə hər zaman Sizin yanınızdayıq”.

Tədbir forumun qətnaməsinin qəbul olunması ilə başa çatıb.

# Heydər Əliyev Fondu ilə UNICEF arasında Anlaşma Memorandumu imzalanıb




Oktyabrın 18-də Heydər Əliyev Fondu ilə BMT-nın Uşaq Fondu (UNICEF) arasında Anlaşma Memorandumu imzalanıb.

AZƏRTAC xəbər verir ki, imzalama mərasimində Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva və UNICEF-in Azərbaycandakı nümayəndəsi Edvard Karvardin iştirak ediblər.

Memorandum 2020-ci ilin sonunadək inklüzivlik və erkən uşaqlıq dövrünün inkişafı sahəsində müxtəlif layihələrin həyata keçirilməsini nəzərdə tutur. Əməkdaşlıq çərçivəsində bu sahədə valideynlərin təhsil və təcrübələrini dəstəkləyən proqramların reallaşdırılması, ictimai maarifləndirmənin artırılması planlaşdırılır.

Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov fondun təhsil, səhiyyə və sosial sahələrdə həyata keçirdiyi layihələr barədə danışaraq, fiziki imkanları məhdud uşaqların cəmiyyətə inteqrasiyası, uşaqların sağlamlığı və təhsili sahəsində fondla UNICEF arasında mövcud əməkdaşlıq barədə məlumat verib. Qeyd olunub ki, imzalanan memorandum bu əməkdaşlığın genişləndirilməsinə yeni imkanlar yaradacaq.

Memorandum çərçivəsində Heydər Əliyev Fondu, “Regional İnkişaf” İctimai Birliyi və UNICEF-in birgə dəstəyi ilə uşaqların məktəbəqədər dövrdə sağlamlığı, müxtəlif bacarıqlarının inkişafı üzrə layihələrin həyata keçirilməsi nəzərdə tutulur.

İmzalama mərasimindən sonra qonaqlar Heydər Əliyev Mərkəzində “Live Life” (“Canlı həyat”) sərgisi ilə tanış olublar. Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə təşkil olunan sərgi ətraf mühit problemlərinə, təbiətin qorunmasına diqqət çəkmək və incəsənətin bu sahədə rolu barədə ictimaiyyəti maarifləndirmək məqsədi daşıyır. Ekspozisiya London, Paris, Berlin, Moskva və Tbilisidə nümayişdən sonra Bakıya gətirilib.

# Mətbuat Şurasının idarə heyətinin iclası keçirilib

Oktyabrın 18-də Azərbaycan Mətbuat Şurasının (MŞ) idarə heyətinin iclası keçirilib.

Şuradan AZƏRTAC-a bildiriblər ki, MŞ sədri, deputat Əflatun Amaşov çıxışında Prezident İlham Əliyevin oktyabrın 15-də keçirdiyi iqtisadi müşavirədə ölkə mediasına da aid edilə biləcək fikirlərini tədbir iştirakçıları ilə bölüşüb.

Şuranın idarə heyətinin üzvləri Prezident İlham Əliyevə dövlət idarəçiliyi baxımından kifayət qədər aktual olan məsələyə həssas münasibət göstərdiyi üçün təşəkkür ediblər. Qeyd edilib ki, mediamız mahiyyətcə yenilikləri, cəmiyyəti inkişafa aparan prosesləri dəstəkləyən mütərəqqi təbiətə malikdir. Dövlət başçısı da buna çalışır və onun mesajları jurnalistika qarşısında yeni vəzifələr müəyyənləşdirir. İdarə heyətinin üzvləri çıxışlarında ölkədə media sahəsindəki duruma, o cümlədən jurnalistikadan sui-istifadə hallarını şərtləndirən cəhətlərə ətraflı nəzər salıblar. Bildirilib ki, mediadan sui-istifadə meyillərinə qarşı mübarizədə yalnız ictimai qınaqla kifayətlənmək səmərəli nəticə vermir. Bu baxımdan Mətbuat Şurası haqqında ayrıca qanuna ehtiyac var.

İclasda qeyd edilib ki, internet medianın həyatımıza təsiri artan xətt üzrə inkişaf edir. Bu təsirin istər cəmiyyətin, istərsə də dövlətin maraq və mənafelərinin təminatına yönləndirilməsinin zəruriliyi vurğulanıb.

Toplantıda səslənən məsələlərin təkliflər paketi şəklində ölkə rəhbərliyinə təqdim edilməsinə dair qərar qəbul edilib.

# İşıqlı ölkə

*Əvvəli 1-ci səh.*

Burada hər birinin gücü 3,3 meqavat olan beş mühərrik-generator, həmçinin iki yarımstansiya quraşdırılıb. Layihənin komponentlərinə, həmçinin bir blok, iki güc və iki xüsusi sərfiyyat transformatoru da daxildir.

Bu layihə bölgənin enerji təminatı baxımından əhəmiyyəti ilə seçilir. Belə ki, regionun enerji təminatının keyfiyyət göstəricilərini yaxşılaşdıran stansiya ildə 75 milyon kilovat-saat elektrik enerjisi istehsal etmək imkanına malikdir. Bu da Lerik və Yardımlı rayonlarının elektrik enerjisinə tələbatından 40 faiz çoxdur. Stansiyanın fəaliyyəti ilə regionun ucqar nöqtələrində gərginlik səviyyəsinin normadan aşağı düşməsi hallarının qarşısı alınır.

Digər bölgələrdə istifadəyə verilən elektrik stansiyalarının da həmin ərazinin iqtisadiyyatına və orada yaşayan əhalinin sosial həyatına müsbət təsiri böyükdür. Bu stansiyalardan son illərdə istismara daxil olan “Astara”, “Şəki”, “Xaçmaz”, “Naxçıvan”, “Şahdağ”, “Səngəçal” və başqalarını göstərmək olar. “Vayxır”, “Biləv”, “Cənub”, “Taxtakörpü”, “Şəmkirçay”, “Arpaçay-1” və “Arpaçay-2”, “Balakən” və digər stansiyalar, adlarından da göründüyü kimi, ölkənin müxtəlif rayonlarında inşa edilib və sosial-iqtisadi həyata öz töhfələrini verməkdədir. Ötən dövrdə, eləcə də “Azərbaycan” İES-də və “Mingəçevir” SES silsiləsində modernləşdirmə istiqamətli əsaslı yenidənqurma işləri həyata keçirilib.

Sözügedən sahədə ötürücü infrastrukturun təkmilləşdirilməsi və müasirləşdirilməsi istiqamətində həyata keçirilən tədbirlər isə enerjisistemin dayanıqlığını möhkəmləndirməklə yanaşı, regional əməkdaşlıq və kommersiya əlaqələri üçün texniki imkanların genişləndirilməsinə də şərait yaradıb.

Həyata keçirilən ardıcıl tədbirlər Azərbaycana öz əhalisini elektrik enerjisi ilə dayanıqlı şəkildə təmin etməyə və onun digər ölkələrə ixracına imkan verib. Prezident İlham Əliyevin yanında keçirilən iqtisadi müşavirədə qeyd edildiyi kimi, bu, beynəlxalq reytinq təşkilatlarının da diqqətindən yayınmır və onlar Azərbaycanın nailiyyətlərinə layiqincə dəyər verirlər.

***Flora SADIQLI,***
***“Azərbaycan”***

Layihə

# Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 5-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsinin gəlirləri 24 134 500,0 min manat, xərcləri 26 913 700,0 min manat (o cümlədən mərkəzləşdirilmiş gəlirləri 23 336 950,0 min manat, yerli gəlirləri 797 550,0 min manat, mərkəzləşdirilmiş xərcləri 26 063 596,0 min manat, yerli xərcləri 850 104,0 min manat) məbləğində təsdiq edilsin.

**Maddə 2.** Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsinin gəlirləri mədaxil mənbələri üzrə aşağıdakı məbləğlərdə nəzərdə tutulsun:

| Sıra №-si | Gəlirlərin mənbələri | Məbləğ (min manatla) |
|---|---|---|
| 1 | 2 | 3 |
| 2.1. | Fiziki şəxslərin gəlir vergisi | 1 175 000,0 |
| 2.2. | Hüquqi şəxslərin mənfəət (gəlir) vergisi | 2 656 500,0 |
| 2.3. | Hüquqi şəxslərin torpaq vergisi | 45 000,0 |
| 2.4. | Hüquqi şəxslərin əmlak vergisi | 211 000,0 |
| 2.5. | Əlavə dəyər vergisi | 4 735 000,0 |
| 2.5.1. | Azərbaycan Respublikasının ərazisinə malların idxalına görə əlavə dəyər vergisi | 2 705 000,0 |
| 2.6. | Sadələşdirilmiş vergi | 380 000,0 |
| 2.7. | Aksizlər | 1 049 000,0 |
| 2.7.1. | Azərbaycan Respublikasının ərazisinə malların idxalına görə aksizlər | 300 000,0 |
| 2.8. | Yol vergisi | 121 000,0 |
| 2.8.1. | Azərbaycan Respublikasının ərazisinə idxal olunan yanacağa görə və xarici dövlətlərin avtonəqliyyat vasitələri sahibləri tərəfindən ödənilən yol vergisi | 45 000,0 |
| 2.9. | Mədən vergisi | 134 500,0 |
| 2.10. | Gömrük rüsumları | 950 000,0 |
| 2.11. | Azərbaycan Respublikasında istehsal edilən və qiymətləri tənzimlənən məhsulların kontrakt (satış) qiyməti ilə (ixrac xərcləri çıxılmaqla) ölkədaxili topdansatış qiyməti arasındakı fərqdən yığımlar | 220 000,0 |
| 2.12. | Xarici dövlətlərə verilmiş kreditlər üzrə daxilolmalar | 2 381,0 |
| 2.13. | Səhmlərində dövlətin payı olan müəssisələrdən alınan dividendlər | 2 780,0 |
| 2.14. | Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqandan (qurumdan) daxilolmalar (transfertin yuxarı həddi) | 11 350 000,0 |
| 2.15. | Dövlət əmlakının icarəyə verilməsindən daxilolmalar | 8 000,0 |
| 2.16. | Dövlət mülkiyyətində olan torpaqların icarəyə verilməsindən daxilolmalar | 8 000,0 |
| 2.17. | Dövlət rüsumu | 190 000,0 |
| 2.18. | Büdcə təşkilatlarının ödənişli xidmətlərindən daxilolmalar | 839 500,0 |
| 2.19. | Sair daxilolmalar | 56 839,0 |

**Maddə 3.** Müəyyən edilsin ki, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi məqsədli büdcə fondu dövlət büdcəsinin aşağıdakı mədaxil mənbələri hesabına formalaşır:

**(min manatla)**

| | | |
|---|---|---|
| 3.1. | Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi məqsədli büdcə fondu | 322 000,0 |
| 3.1.1. | yol vergisi | 121 000,0 |
| 3.1.2. | mülkiyyətində və ya istifadəsində olan avtonəqliyyat vasitələri ilə sərnişin və yük daşımalarını həyata keçirən şəxslər tərəfindən ödənilən sadələşdirilmiş vergi | 7 000,0 |
| 3.1.3. | idxal olunan minik avtomobillərinə tətbiq edilən aksizlər | 50 000,0 |
| 3.1.4. | idxal olunan avtonəqliyyat vasitələrinə tətbiq edilən gömrük rüsumu | 90 400,0 |
| 3.1.5. | Azərbaycan Respublikasının ərazisində beynəlxalq avtomobil daşımalarını tənzimləyən icazənin verilməsi üçün tutulan dövlət rüsumu | 13 300,0 |
| 3.1.6. | nəqliyyat vasitələrinin, o cümlədən motonəqliyyat vasitələrinin, qoşquların və yarımqoşquların texniki baxışdan keçirilməsi üçün tutulan dövlət rüsumu | 18 300,0 |
| 3.1.7. | Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsinin mərkəzləşdirilmiş gəlirlərindən ayrılan vəsait | 22 000,0 |

**Maddə 4.** Azərbaycan Respublikasında istehsal edilən və qiymətləri tənzimlənən məhsulların ixracı zamanı məhsulların kontrakt (satış) qiyməti ilə (ixracla bağlı xərclər çıxılmaqla) ölkədaxili topdansatış qiyməti arasındakı fərqdən dövlət büdcəsinə 30 faiz həcmində yığım tutulur və bu yığımlar vergi ödəyicisinin vergilər, faizlər, maliyyə sanksiyaları və inzibati cərimələr üzrə digər borclarının ödənilməsinə aid edilmir.

**Maddə 5.** Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsinin mərkəzləşdirilmiş gəlirləri aşağıdakı mənbələr hesabına formalaşdırılır:

5.1. bu Qanunun 9-cu maddəsi ilə 2020-ci il üçün hər bir şəhər və rayon üzrə müəyyən edilmiş gəlirlərin müvafiq şəhər və rayonların yerli xərclərindən artıq olan hissəsi (müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi məqsədli büdcə fonduna aid edilənlərdən başqa);

5.2. gömrük rüsumları, Azərbaycan Respublikasının ərazisinə malların idxalına görə əlavə dəyər vergisi və aksiz (Naxçıvan Muxtar Respublikasının gömrük orqanları tərəfindən toplanılanlardan başqa), dövlət əmlakının icarəyə verilməsindən daxilolmalar, xarici dövlətlərə verilmiş kreditlər üzrə daxilolmalar, səhmlərində dövlətin payı olan müəssisələrdən alınan dividendlər, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqandan (qurumdan) daxilolmalar, sair daxilolmalar, dövlət büdcəsinin mərkəzləşdirilmiş xərclərindən maliyyələşdirilən büdcə təşkilatlarının ödənişli xidmətlərindən daxilolmalar, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi məqsədli büdcə fondunun gəlirləri tam həcmdə.

**Maddə 6.** Bu Qanunun 9-cu maddəsi ilə 2020-ci il üçün hər bir şəhər və rayon üzrə müəyyən edilmiş gəlirlərin müvafiq şəhər və rayonların yerli xərclərindən artıq olmayan hissəsi onların yerli gəlirlərinin formalaşdırılmasına yönəldilir.

**Maddə 7.** Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsinin xərcləri funksional təsnifatın bölmə və köməkçi bölmələri səviyyəsində aşağıdakı məqsədlərə yönəldilir:

| Sıra №-si | Xərclərin istiqamətləri | Məbləğ (manatla) |
|---|---|---|
| 1 | 2 | 3 |
| 7.1. | Ümumi dövlət xidmətləri | 4 027 262 094,0 |
| 7.1.1. | qanunvericilik və icra hakimiyyəti, yerli özünüidarəetmə orqanlarının fəaliyyəti | 1 122 599 970,0 |
| 7.1.2. | beynəlxalq münasibətlər | 400 800 000,0 |
| 7.1.3. | xarici yardımlar | 12 000 000,0 |
| 7.1.4. | elm | 193 662 887,0 |
| 7.1.5. | seçkilərin keçirilməsi və statistika tədbirləri | 75 948 025,0 |
| 7.1.6. | büdcələrarası transfertlər | 394 090 000,0 |
| 7.1.6.1. | yerli (bələdiyyələr) büdcələrə verilən dotasiya | 5 000 000,0 |
| 7.1.6.2. | yerli (bələdiyyələr) büdcələrə verilən subvensiya | 1 200 000,0 |
| 7.1.6.3. | Naxçıvan Muxtar Respublikasının büdcəsinə verilən dotasiya | 387 890 000,0 |
| 7.1.7 | dövlət borcu | 1 828 161 212,0 |
| 7.2. | Müdafiə və milli təhlükəsizlik | 3 853 585 721,0 |
| 7.2.1 | müdafiə qüvvələri | 1 722 854 459,0 |
| 7.2.2. | milli təhlükəsizlik | 235 651 063,0 |
| 7.2.3. | sərhəd xidməti | 285 189 961,0 |
| 7.2.4. | müdafiə və milli təhlükəsizlik sahəsində tətbiqi tədqiqatlar | 3 890 602,0 |
| 7.2.5. | müdafiə və milli təhlükəsizlik sahəsinə aid edilən digər fəaliyyətlər | 1 605 999 636,0 |
| 7.3. | Məhkəmə hakimiyyəti, hüquq mühafizə və prokurorluq | 1 973 067 124,0 |
| 7.3.1. | məhkəmə hakimiyyəti | 105 845 815,0 |
| 7.3.2. | hüquq mühafizə | 1 474 000 840,0 |
| 7.3.3. | prokurorluq | 67 998 696,0 |
| 7.3.4. | hüquqi yardım | 5 540 450,0 |
| 7.3.5. | məhkəmə hakimiyyəti, hüquq mühafizə və prokurorluq sahələrinə aid edilən digər fəaliyyətlər | 319 681 323,0 |
| 7.4. | Təhsil | 3 155 797 681,0 |
| 7.4.1. | məktəbəqədər təhsil | 323 108 486,0 |
| 7.4.2. | ümumi təhsil | 1 705 352 803,0 |
| 7.4.3. | peşə təhsili | 53 959 508,0 |
| 7.4.4. | orta ixtisas təhsili | 74 341 607,0 |
| 7.4.5. | ali təhsil | 49 198 286,0 |
| 7.4.6. | əlavə təhsil | 4 362 063,0 |
| 7.4.7. | təhsil sahəsində tətbiqi tədqiqatlar | 4 922 874,0 |
| 7.4.8. | təhsil sahəsində digər müəssisə və tədbirlər | 940 552 054,0 |
| 7.5. | Səhiyyə | 1 369 011 949,0 |
| 7.5.1. | xəstəxanalar | 160 510 010,0 |
| 7.5.2. | diaqnostika, profilaktika və qan xidməti ilə bağlı fəaliyyətlər | 2 619 946,0 |
| 7.5.3. | səhiyyə sahəsində tətbiqi tədqiqatlar | 9 430 620,0 |
| 7.5.4. | səhiyyə sahəsində proqramlar və digər xidmətlər | 1 196 451 373,0 |
| 7.6. | Sosial müdafiə və sosial təminat | 3 244 591 912,0 |
| 7.6.1. | sosial müdafiə | 254 290 750,0 |
| 7.6.2. | sosial təminat | 52 683 746,0 |
| 7.6.3. | sosial müdafiə və sosial təminat sahələri üzrə tətbiqi tədqiqatlar | 60 000,0 |
| 7.6.4. | sosial müdafiə və sosial təminat sahələri üzrə digər müəssisə və tədbirlər | 2 937 557 416,0 |
| 7.6.4.1. | sosial təminatı və müdafiəni həyata keçirən müvafiq icra hakimiyyəti orqanının büdcəsinin balanslaşdırılması məqsədilə dövlət büdcəsinin öhdəliklərinin maliyyələşdirilməsi üçün ayrılan vəsait | 1 426 914 030,0 |
| 7.7. | Mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti və bu qəbildən olan digər fəaliyyət | 439 148 700,0 |
| 7.7.1. | mədəniyyət və incəsənət sahəsində fəaliyyət | 178 114 885,0 |
| 7.7.2. | televiziya, radio və nəşriyyat | 51 975 598,0 |
| 7.7.3. | bədən tərbiyəsi və gənclər siyasəti | 55 050 241,0 |
| 7.7.4. | mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti sahəsinə aid olan digər müəssisə və tədbirlər | 154 007 976,0 |
| 7.8. | Mənzil və kommunal təsərrüfatı | 249 112 093,0 |
| 7.8.1. | mənzil | 32 691 008,0 |
| 7.8.2. | kommunal təsərrüfatı | 96 658 484,0 |
| 7.8.3. | su təsərrüfatı | 42 561 000,0 |
| 7.8.4. | mənzil və kommunal təsərrüfatı ilə bağlı digər xidmətlər | 77 201 601,0 |
| 7.9. | Kənd təsərrüfatı | 920 990 081,0 |
| 7.9.1. | kənd təsərrüfatı tədbirləri | 447 361 919,0 |
| 7.9.2. | Baytarlıq | 35 400 000,0 |
| 7.9.3. | Meliorasiya | 426 001 762,0 |
| 7.9.4. | kənd təsərrüfatı üzrə digər müəssisə və tədbirlər | 12 226 400,0 |
| 7.10. | ətraf mühitin mühafizəsi | 279 886 365,0 |
| 7.10.1. | bioloji zənginliyin qorunması | 7 993 619,0 |
| 7.10.2. | hidrometeorologiya tədbirləri | 12 366 533,0 |
| 7.10.3. | meşə təsərrüfatı | 17 445 817,0 |
| 7.10.4. | balıqçılıq və ovçuluq | 2 442 216,0 |
| 7.10.5. | ərazilərin təmizlənməsi, çirkab suların yığılması və təmizlənməsi | 228 339 180,0 |
| 7.10.6. | ətraf mühitin mühafizəsi sahəsinə aid edilən digər xidmətlər | 11 299 000,0 |
| 7.11. | iqtisadi fəaliyyət | 5 602 460 298,0 |
| 7.11.1. | nəqliyyat və rabitə | 302 704 248,0 |
| 7.11.2. | iqtisadi və kommersiya fəaliyyəti | 78 653 409,0 |
| 7.11.3. | tikinti və şəhərsalma | 4 910 561 800,0 |
| 7.11.3.1. | dövlət əsaslı vəsait qoyuluşu | 4 909 000 000,0 |
| 7.11.4. | geodeziya və faydalı qazıntılar | 17 300 000,0 |
| 7.11.5. | yanacaq və enerji kompleksi | 4 700 000,0 |
| 7.11.6. | iqtisadi fəaliyyət sahələri üzrə tətbiqi tədqiqatlar | 1 500 000,0 |
| 7.11.7. | iqtisadi fəaliyyət ilə bağlı digər xidmətlər | 287 040 841,0 |
| 7.12. | əsas bölmələrə aid edilməyən xərclər | 1 798 785 982,0 |
| 7.12.1. | ehtiyat fondları | 410 000 000,0 |
| 7.12.1.1. | Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondu | 300 000 000,0 |
| 7.12.1.2. | Dövlət büdcəsinin ehtiyat fondu | 110 000 000,0 |
| 7.12.2. | məqsədli büdcə fondları | 322 000 000,0 |
| 7.12.2.1. | müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi məqsədli büdcə fondu | 322 000 000,0 |
| 7.12.3. | valyuta konvertasiyası | 4 000 000,0 |
| 7.12.4. | əsas bölmələrə aid edilməyən tədbirlər üzrə digər fəaliyyət | 1 062 785 982,0 |
10 Çeşməli bələdiyyəsi
11 Cəyirli bələdiyyəsi
12 İbrahimkənd bələdiyyəsi
13 Kiş bələdiyyəsi
14 Küdürlü bələdiyyəsi
15 Orta Zəyzid bələdiyyəsi
16 Qayabaşı bələdiyyəsi
17 Şirinbulaq bələdiyyəsi
18 Turan bələdiyyəsi
19 Vərəzət bələdiyyəsi
Şəki bələdiyyəsi (bir hissəsi)

**116 saylı Qəbələ seçki dairəsi**
1 Qəbələ bələdiyyəsi
2 Bayramkoxalı bələdiyyəsi
3 Böyük Əmili bələdiyyəsi
4 Böyük Pirəli bələdiyyəsi
5 Bunud bələdiyyəsi
6 Çuxur Qəbələ bələdiyyəsi
7 Əmirvan bələdiyyəsi
8 Hacalılı bələdiyyəsi
9 Kürd bələdiyyəsi
10 Laza bələdiyyəsi
11 Məlikli bələdiyyəsi
12 Nic bələdiyyəsi
13 Nohurqışlaq bələdiyyəsi
14 Quşlar bələdiyyəsi
15 Soltannuxa bələdiyyəsi
16 Tüntül bələdiyyəsi
17 Vəndam bələdiyyəsi
18 Yeni Dizaxlı bələdiyyəsi
19 Yenikənd bələdiyyəsi
20 Zalam bələdiyyəsi

**117 saylı Oğuz-Qəbələ seçki dairəsi**
*Oğuz rayonu üzrə*
1 Böyük Söyüdlü bələdiyyəsi
2 Filfili bələdiyyəsi
3 Padar bələdiyyəsi
4 Sincan bələdiyyəsi
5 Xaçmaz bələdiyyəsi
6 Xalxal bələdiyyəsi
7 Oğuz bələdiyyəsi
8 Baş Daşağıl bələdiyyəsi
9 Bayan bələdiyyəsi
10 Bucaq bələdiyyəsi
11 Calut bələdiyyəsi
12 Kərimli bələdiyyəsi
13 Muxas bələdiyyəsi
14 Qumlaq bələdiyyəsi
15 Yaqublu bələdiyyəsi
*Qəbələ rayonu üzrə*
16 Aydınqışlaq bələdiyyəsi
17 Bum bələdiyyəsi
18 Cığatelli bələdiyyəsi
19 Mirzəbəyli bələdiyyəsi
20 Mıxlıqovaq bələdiyyəsi
21 Qəmərvan bələdiyyəsi
22 Tikanlı bələdiyyəsi
23 Yemişanlı bələdiyyəsi
24 Zarağan bələdiyyəsi

**119 saylı Ağdam kənd seçki dairəsi**
1 Alıbəyli bələdiyyəsi
2 Çəmənli bələdiyyəsi
3 Əfətli bələdiyyəsi
4 Əhmədağalı bələdiyyəsi
5 Hacıturalı bələdiyyəsi
6 Mərzili bələdiyyəsi
7 Qaradağlı bələdiyyəsi
8 Qərvənd bələdiyyəsi
9 Quzanlı bələdiyyəsi
10 Sarıcalı bələdiyyəsi
11 Təzəkənd bələdiyyəsi
12 Üçoğlan bələdiyyəsi
13 Xındırıstan bələdiyyəsi
14 Zəngişalı bələdiyyəsi

# Azərbaycanda ilk dəfə dünyanın ən böyük hackathonu keçirilir

Oktyabrın 18-də ADA Universitetində Azərbaycanda ilk dəfə dünyanın ən böyük hackathonu - "NASA Space Apps Challenge"in açılış mərasimi keçirilib.



Tədbir "Azərkosmos" ASC, ADA Universiteti, ABŞ-ın Azərbaycandakı səfirliyinin təşkilatçılığı, Aeronavtika və Kosmik Tədqiqatlar Milli Agentliyi (NASA), Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin "Innoland" İnkubasiya və Akselerasiya Mərkəzinin tərəfdaşlığı, "Lenovo" şirkətinin ölkəmizdəki rəsmi nümayəndəliyinin sponsorluğu ilə təşkil olunub.

AZƏRTAC xəbər verir ki, tədbiri açan ADA Universitetinin rektoru, səfir Hafiz Paşayev "NASA Space Apps Azerbaijan" hackathonunda ölkənin müxtəlif dövlət qurumu və təşkilatlarından, özəl şirkətlərdən və təhsil müəssisələrindən 50-dək komandanın qeydiyyatdan keçdiyini bildirib. Onların sırasında hackathon sahəsində spesifik təcrübə ilə yanaşı, texniki, mühəndislik və riyazi biliklərə malik potensiallı və motivasiyalı gənclərdən ibarət 25 komanda olmaqla ümumilikdə 100 nəfər iştirak hüququ qazanıb.

Səfir Hafiz Paşayev qeyd edib ki, "NASA Space Apps Challenge" hackathonu oktyabrın 18-də dünyanın təxminən 200-ə yaxın şəhərində eyni anda başlayır. Sevindirici haldır ki, bu şəhərlər sırasında Bakı da var.

ABŞ-ın Merilend Universitetinin professoru, akademik Roald Saqdeyev hackathonun müsbət tərəflərindən bəhs edib. O bildirib ki, hackathon kosmik sahəyə maraq göstərən gənclər üçün bu sahədə innovativ məhsul yaratmaq fürsətini verəcək.

"Azərkosmos"un sədri Rəşad Nəbiyev rəhbərlik etdiyi ASC-nin Cənubi Qafqazda ilk və yeganə peyk operatoru olduğunu vurğulayıb. Qeyd edib ki, hackathonun Azərbaycanda keçirilməsinin məqsədi Yeri və kosmosu anlamaq təcrübəsini qazanmaq, planetdə baş verən iqlim dəyişiklikləri və onların canlı aləmə təsirini araşdırmaqdır. Eyni zamanda, kosmik sahənin tədqiqində Azərbaycan gənclərinin potensialını üzə çıxarmaqdır. Yarış həmfikir komanda yoldaşını tapmaq və "hacking" bacarıqlarını nümayiş etdirmək üçün yaxşı bir fürsətdir. İştirakçılar əhatələrini genişləndirmək, mentorlardan və mütəxəssislərdən, eləcə də bir-birindən öyrənmək şansı əldə edəcəklər.

"Saturn planetinin tədqiqi üzrə Kassini proqramı"nın baş tədqiqatçısı Anna Verbisker bildirib ki, müasir dünyada texnoloji yeniliklər sürətlə inkişaf edir. Bununla ayaqlaşmaq üçün ABŞ-ın kosmik proqramlarını həyata keçirən NASA 2012-ci ildən etibarən "Space Apps" mövzusunda beynəlxalq hackathon keçirir. "Space Apps" hackathonu texnologiya sahəsində işləyənləri, elmi tədqiqatla məşğul olanları, dizayner, sahibkar və s. sahədən olan insanları bir araya toplayır. Hackathonun məqsədi insanları dünyada və kosmosda baş verən hadisələri, habelə dəyişiklikləri araşdırmaq və zərurət yarandığı halda uyğun həll üsullarını təklif etməyə yönəltməkdir.

"Kosmik nəsil üzrə məşvərət şurası" təşkilatının nümayəndəsi Sahit Redi Madara məlumat verib ki, "NASA Space Apps Azerbaijan" hackathonunun builki mövzusuna Yerin və kosmik sahənin tədqiqi üçün proqram təminatının, məlumat bazasının və kosmik infrastruktur sahəsində problemlərin həlli yolunda müxtəlif tətbiqi proqramlar və elektron məhsulların hazırlanması daxildir. Eyni zamanda, qarşıya qoyulan tapşırıqları yerinə yetirmək üçün NASA tərəfindən iştirakçılara qlobal "NASA Space Apps" hackathonunun tərəfdaşları olan "Suntiel Hub" peyk təsvirləri, "Google Cloud", "Microsoft Azure", "Microsoft AI" platformalarına və "Neustar" veb-saytına giriş imkanı verilib.

Qeyd edək ki, ADA Universitetində keçirilən ikigünlük hackathon yarışında komandalara verilən tapşırıqlar üzərində işləmək üçün əlverişli şərait və komfort zona yaradılıb. Tələbələr və hackathon həvəskarları 2 gün ərzində verilən tapşırıq əsasında məhsul təqdim etmək üçün bir araya gələcəklər. Yarış iştirakçıları təcrübə və biliklərini digərləri ilə bölüşməklə yanaşı, "NASA Space Apps Challenge" hackathonu çərçivəsində innovativ məhsul yaratmaq imkanı əldə edəcəklər. Hackathonun keçirildiyi müddətdə iştirakçılar arasındakı gərgin mübarizəni asanlaşdırmaq üçün yoqa, fitnes və musiqi fasiləsi olacaq. Bundan əlavə, iştirakçılar üçün NASA-dan həm qonaq, həm də jüri qismində qatılan Anna Verbiskerin təqdimat sessiyası keçiriləcək.

Oktyabrın 20-də keçiriləcək finalda isə komandalar hazırladıqları nəticələri yerli və beynəlxalq üzvlərdən ibarət jüri qarşısında nümayiş etdirəcəklər. Jüri heyəti NASA-nın "Saturn planetinin tədqiqatı üzrə Kassini proqramı"nın baş tədqiqatçısı Anna Verbisker, "Kosmik nəsil üzrə məşvərət şurası" təşkilatının nümayəndəsi Sahit Redi Madara, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyindəki "Innoland" İnkubasiya və İnnovasiya Mərkəzi, "Lenovo" şirkətinin Azərbaycanda rəsmi nümayəndəliyi və "Azərkosmos"un mütəxəssislərindən ibarətdir.

Müsabiqədə qalib komanda üçün mükafat 10 min manat nəzərdə tutulur. İkinci yerin sahibi 5 min manat, üçüncü yerdə qərarlaşan komanda isə 2500 manat mükafat qazanacaq.

Xatırladaq ki, hackathon ortaq fikrə malik insanların müəyyən müddət ərzində, komanda halında eyni mühitdə innovativ fikirlərini kodlaşdırdıqları müsabiqələrə verilən addır. Layihənin ilk sətir və son sətir kodu da o mühitdə yazılmalıdır. Ən sadə dillə desək, bu müsabiqə bir fikrin beyin fırtınası ilə birləşib qısa müddət ərzində kodlaşdırılmasıdır.

Milli qəhrəmanlarımız

# Döyüş yoldaşları ona çox güvənirdilər



İntiqam Vahid oğlu Atakişiyev könüllü olaraq cəbhəyə yola düşəndə cəmi 17 yaşı vardı. Orta məktəbi təzəcə bitirmişdi. Qəbələnin Tüntil kəndində təhsil almışdı. Polis sıralarında işləmək istəyirdi. Amma Qarabağ müharibəsi, erməni işğalçılarının torpaqlarımızı zəbt etməsi onun istəklərinə bir sədd çəkmişdi. Deyirdi ki, torpaqlarımız işğaldan azad olunmayınca, bizə dinclik yoxdur. Gərək öz gücümüzü, qüvvəmizi səfərbər edib düşməni cavabsız qoymayaq...

İntiqam cəbhəyə yola düşəndə Ağdamda, Tərtərdə, Qubadlıda qızğın döyüşlər gedirdi. O, könüllü olaraq birinci Ağdama yola düşdü. Ən ciddi döyüş tapşırıqlarını sona qədər uğurla başa çatdırırdı, düşmənə sarsıdıcı zərbələr vururdu. Ən qısa müddətdə cəsarətli döyüşçü kimi tanınmışdı. Yüksək keyfiyyətlərini nəzərə alıb onu Türkiyədə hərbi təlimlərə göndərdilər. Özü demişkən, türk ordusunun gücü, qüdrəti ona yüksək keyfiyyətlər aşıladı. Mövqe seçimində çevikliyi, cəldliyi ilə fərqləndi. Türk ordusunun ən nümunəvi döyüşçüləri ilə rəqabətə dözürdü, öyrənməkdən yorulmurdu. Türkiyədə təlim kurslarını uğurla başa çatdırandan sonra yenidən doğma torpaqlarımızın azad olunmasında bütün qüvvəsini əsirgəmədi. Murovda davam edən ağır döyüşlərdə iştirak etdi. Və həmin döyüşlərin birində ağır yaralandı. İki aya yaxın müalicə almalı oldu. Hər an yenidən cəbhəyə dönəcəyi günü gözləyirdi. Hərbi hissədən onun qayıtmasına nə qədər etiraz etsələr də, inadından dönmədi. Murovda ən ağır döyüşlərə cəlb olundu. Bunun ardınca Tərtərdə, Qubadlıda gedən döyüşlərdə iştirak etdi. Düşmənin aylarla hazırladığı planları inadkarlıqla pozurdu. Artıq İntiqam Atakişiyevin adı erməni quldurlarına yaxşı bələd idi. Bilirdilər ki, İntiqamın iştirak etdiyi döyüşlər düşmənə ağır itkilərlə başa gəlir. Ona görə də onu birdəfəlik məhv etmək üçün yollar axtarır, hətta mükafatlar təsis edirdilər. Düşmənin nə qədər hiyləgər, məkrli olduğunu İntiqam yaxşı bilirdi. Bilirdi ki, belə düşmənə əsir düşmək dünyanın ən böyük faciəsidir. Belə bir məngənədən xilas olmaq üçün ehtiyatlı davranır, özünü və dostlarını düşmən hiylələrindən qorumağa çalışırdı.

Döyüş dostları İntiqam Atakişiyevə çox güvənir, onun gücünə, qüvvəsinə arxalanırdılar. Hər dəfə İntiqamın iştirak etdiyi döyüşlərin uğurla başa çatacağına çox inanırdılar. Özü deyirdi ki, inamsız döyüşə getmək uduzmağın başlanğıcıdır. Ona görə də ilk addımları elə atmalıyıq ki, düşmən planlarımızı qabaqcadan anlamasın. Belə olanda döyüşmək də asan olur. Döyüş dostlarımızın əqidə birliyi uğurlu nəticələrə güclü inam yaradırdı. Dəfələrlə şahidi olmuşam ki, gücümüzə inam olanda uğurlar qazana bilirik.

Cəbhədə mövqe dəyişikliyi tez-tez baş versə də, İntiqam dəqiq planlar cıza bilirdi. Onun döyüş dostları da bunu etiraf edirdilər. Komandirləri, döyüşə rəhbərlik edənlər İntiqamın məsləhətlərinə axıra qədər əhəmiyyət verirdilər, ondan faydalanırdılar.

İgid döyüşçü öz xatirələrində yazır ki, hər dəfə döyüşə gedəndə elə bilirdim doğma Tüntil kəndini qoruyuram, məndən ümid gözləyən doğmalarımın keşiyində dayanıram. Bu inamla döyüşə gedəndə daha çox uğurlar qazanırdım. Adamları təhlükəsiz yerlərə çatdıranda daxili ağrılarım bir qədər azalırdı. Döyüşlərin birində qəribə mənzərənin şahidi oldum. Anasına sığınan köməksiz körpəni görəndə elə bil mənə yenidən güc-qüvvət gəldi. Düşmənin həmin hədəfə tuşlanan snayperini dəqiq zərbə ilə susdurdum, həmin körpəni və anasını xilas etdim. Mənim də doğma kəndimizdə yolumu gözləyən iki körpə övladım vardı. Elə bildim ki, onları ağır bir zərbədən qurtardım.

Ağır döyüşlərin birində İntiqam düşmən gülləsindən yayına bilmədi. Yenidən ağır yara aldı. Amma bu dəfə də döyüş səngərini tərk etmədi. Hər dəfə dönə-dönə xatırlayırdı ki, məni Qəbələdə gözü yolda qalan iki övladım gözləyir. Onlar mənə ümid və güman yeri kimi baxırlar. Gərək sübut edim ki, mənə güvənənlər zərrə qədər də yanılmayıblar. Axı bu yola çıxanda söz vermişəm ki, geriyə yol yoxdur. Bu, təkcə mənim sözüm deyildi. Elə cəbhədə döyüş dostlarım da mənim bu mövqeyimi müdafiə edir, döyüşdə geri çəkilmirdilər...

İntiqamı tərbiyə edən, böyüdən nəsil ondan yalnız belə cəngavərliklər gözləyirdi. Gözləyirdilər ki, övladları onların sonuncu ümidlərini axıra qədər doğruldacaq. Bunun da öz səbəbləri vardı. İntiqam halal bir ailənin övladı idi. Onların tərbiyəsi ilə böyümək, halal yaşamaq vərdişlərinə yiyələnmək uşaqlıqdan onun payına düşmüşdü. Valideynləri deyiblər ki, bu vətən, bu torpaq sənin doğma ocağındır. Biz bu yerdə çox şeylərin şahidi olmuşuq. Amma heç kəsə əyilməmişik, haqqımızı itirməmişik. Ona görə də el-oba yanında üzümüz ağdır.

*Bəşir ŞƏRİFLİ, "Azərbaycan"*

# Bakı Ali Neft Məktəbində Neft Mühəndisləri Cəmiyyətinin regional sammiti keçirilib

Bakı Ali Neft Məktəbində (BANM) Neft Mühəndisləri Cəmiyyətinin (SPE - Society of Petroleum Engineers) "Regional Tələbə İnkişafı Sammiti" keçirilib. BANM-ın təşkilati dəstəyi ilə həyata keçirilən tədbirdə Azərbaycan, Rusiya, Qazaxıstan və Özbəkistandan olan gənc mütəxəssislər və tələbələr iştirak ediblər.



SOCAR, BP, "Equinar" və "Schlumberger" şirkətlərinin sponsorluğu ilə həyata keçirilən tədbir iki gün davam edib.

Sammiti Bakı Ali Neft Məktəbinin rektoru Elmar Qasımov açaraq SPE-nin neft-qaz mühəndisliyi ixtisası üzrə təhsil alan tələbələr və gənc mütəxəssislər üçün geniş imkanlar açdığını bildirib. Eyni zamanda, E.Qasımov tələbələri SPE-nin təşkil etdiyi tədbirlərdə və həyata keçirdiyi layihələrdə aktiv olmağa çağırıb.

Sammit çərçivəsində SPE-nin prezidenti Şauna Nunan tələbələr qarşısında təqdimatla çıxış edib. O, ilk olaraq dəstəyə və yüksək təşkilatçılığa görə BANM rəhbərliyinə öz təşəkkürünü bildirib.

SPE-nin prezidenti bildirib ki, qeyri-hökumət təşkilatı olan Neft Mühəndisləri Cəmiyyətinin əsas məqsədi tələbə və gənc mühəndislərin inkişafına töhfə vermək, dünya neft sənayesinin təcrübəli mütəxəssislərini bir araya gətirmək, onlara elmi işlərin aparılması, nəticələrin təqdim edilməsi istiqamətində kömək etmək, təcrübələrini paylaşmaq üçün müxtəlif konfranslar, forum, sammit və sərgilər keçirərək şərait yaratmaqdır.

SPE-nin nümayəndəsi Yaroslava Orlova, SPE-nin Rusiya və Xəzər regionu üzrə direktoru Aizana Cussupbekova, SPE Azərbaycanın bölmə rəhbəri Aydın Kərimov müxtəlif mövzular üzrə təqdimatlarla çıxış ediblər.

Sammitin BANM-da keçirilən ilk iki günü ərzində tələbələr üçün təlim və müsabiqə də keçirilib.

*"Azərbaycan"*

# Bölgələrdə vətəndaşları qəbul ediblər

Oktyabrın 18-də Energetika naziri Pərviz Şahbazov İmişli şəhərində Enerji Məsələlərini Tənzimləmə Agentliyinin İmişli filialının inzibati binasında vətəndaşları qəbul edib.

Həmin gün Energetika nazirinin müavini Samir Vəliyev Ağdamda, nazir müavini Elnur Soltanov isə Beyləqan şəhərində yerli sakinlərlə görüşüb.

Vətəndaşlar elektrik enerjisi təchizatı, qazlaşdırma, elektrik enerjisi və ya qaza görə hesablanmış borc və cərimələrin silinməsi, qaz sayğaclarının quraşdırılması, işlə təminat və digər məsələlərlə bağlı müraciətlərini diqqətə çatdırıblar.

Energetika nazirinin qəbulu zamanı vətəndaşlar nazirliyə edilən müraciətlərin operativ həlli, şikayətlərin qanunauyğun şəkildə araşdırılaraq cavablandırılması ilə bağlı təşəkkürlərini bildiriblər.

Energetika Nazirliyinin aidiyyəti struktur bölmələrinin nümayəndələrinin iştirakı ilə keçirilmiş qəbullarda vətəndaşların müraciəti dinlənilib, qaldırılan məsələlərin araşdırılması və qanunvericiliyin tələblərinə uyğun həll edilməsi üçün müvafiq tapşırıqlar verilib. Nazirliyin fəaliyyət dairəsinə aid olmayan müraciətlər isə müvafiq qurumlara çatdırılması üçün qeydiyyata alınıb.

* * *

Oktyabrın 18-də Gənclər və İdman naziri Azad Rəhimov Şirvan şəhərində Şirvan, Hacıqabul şəhər və rayonlarından olan vətəndaşları qəbul edib.

Qəbulda ümumilikdə 20-yə yaxın vətəndaş iştirak edib.

Vətəndaşlar Gənclər evlərinin, olimpiya idman komplekslərinin, bir sıra idman qurğularının tikintisi və təmiri, eləcə də idman arenalarına avadanlığın verilməsi ilə bağlı müraciət ediblər. Eyni zamanda, iş ilə təminat, fəxri adların və məşqçilik dərəcələrinin verilməsi də müraciətlər sırasında olub.

Müraciətlərin bir qismi yerindəcə həllini tapıb. Nazirliyin səlahiyyətlərinə aid olmayan müraciətlərin isə qeydə alınaraq aidiyyəti üzrə göndəriləcəyi bildirilib. Bir qisim müraciət isə baxılması üçün icraya yönəldilib.

* * *

"Azərsu" ASC-nin sədri Qorxmaz Hüseynov Lənkəran şəhərində Lənkəran, Astara və Lerik rayonlarından olan sakinləri qəbul edib.

Lənkəran şəhəri Heydər Əliyev Mərkəzində keçirilən qəbulda Lənkəran, Astara və Lerik rayonlarından 30 vətəndaş iştirak edib. Vətəndaşların müraciətləri əsasən içməli su təchizatı və kanalizasiya xidmətləri, işə qəbul və digər məsələlərlə bağlı olub. Hər bir vətəndaşı dinləyən "Azərsu" ASC-nin sədri müraciətlərin qısa müddətdə araşdırılaraq zəruri tədbirlərin görülməsi barədə aidiyyəti struktur bölmələrinin rəhbərlərinə tapşırıqlar verib. Vətəndaşlar tərəfindən qaldırılan məsələlərin bir qismi yerində həll olunub, araşdırılmasına ehtiyac olan müraciətlər nəzarətə götürülüb.

* * *

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin (AAYDA) idarə heyətinin sədri Saleh Məmmədov oktyabrın 18-də Qazax rayonunda vətəndaşları qəbul edib.

Daha sonra Qazax Rayon Gənclər Mərkəzində keçirilən qəbulda Qazax və Ağstafa rayonlarından olan 30-dək vətəndaşın müraciət və şikayətlərinə baxılıb.

Tovuz rayon Heydər Əliyev Mərkəzində keçirilən qəbulda Tovuz rayonundan olan 10-dan çox vətəndaşın müraciətinə baxılıb.

Hər iki qəbul zamanı müraciətlər əsasən kəndlərarası avtomobil yollarının təmir-bərpası və yenidən qurulması, işə qəbul və digər məsələlərlə bağlı olub. Qəbulda hər bir vətəndaşın müraciəti dinlənilib, şikayətlərin qısa müddətdə araşdırılaraq zəruri tədbirlərin görülməsi barədə aidiyyəti struktur bölmələrinin rəhbərlərinə tapşırıqlar verilib. Vətəndaşlar tərəfindən qaldırılan məsələlərin bir qismi yerində həll olunub, araşdırılmasına ehtiyac olan müraciətlər isə nəzarətə götürülüb.

*AZƏRTAC*

# Erməni yalanları beynəlxalq miqasda ifşa olunur

Soçidə keçirilən "Valday" Beynəlxalq Diskussiya Klubunun illik iclasının plenar sessiyası ilə bağlı televiziyada verilən süjeti mən də izlədim. Ermənistanın baş naziri Nikol Paşinyanın Xankəndidəki sərsəm çıxışı hamı kimi, məndə də ikrah hissi oyatmışdı.



Ancaq Azərbaycan Prezidenti İlham Əliyevin Soçidə mötəbər bir tədbirdə həmin çıxışa münasibət bildirərək vacib bir tribunadan "Qarabağ tarixi əzəli Azərbaycan torpağıdır. Beləliklə, Qarabağ Azərbaycandır və nida işarəsi" sözləri bütün soydaşlarımız kimi, məni də qürurlandırdı. Bununla bir daha ölkəmizin sözügedən münaqişə ilə bağlı sərt mövqeyi ortaya qoyuldu. Bu çıxış Ermənistana vurulan növbəti siyasi-diplomatik zərbə kimi tarixə düşdü.

Ümumiyyətlə, ölkə rəhbərinin mötəbər məclislərdə Qarabağla bağlı söylədiyi qətiyyətli fikirlər hamımıza yaxşı məlumdur. Lakin bu çıxışında Qarabağla bağlı birmənalı mövqeyi nəinki Ermənistanın baş naziri Nikol Paşinyana, erməni ictimaiyyətinə, həmçinin Ermənistanın havadarlarına da olduqca layiqli cavab oldu.

İndi dünya politoloqları həmin iclasda Prezident İlham Əliyevin çıxışını müzakirə edir, onun nə qədər dəyərli fikirlər söylədiyini diqqətə çatdırırlar. Bütün Azərbaycan xalqının ürəyindən xəbər verən bu çıxışda bir çox məsələlərə aydınlıq gətirilməklə yanaşı, Dağlıq Qarabağın Azərbaycana məxsus olması bir daha sübuta yetirildi. Prezident İlham Əliyev Ermənistanın baş nazirinin məlum bəyanatının yalan olduğunu vurğulayaraq demişdir: "Həmçinin Ermənistan baş nazirinin təəccüb doğuran bəyanatına toxunmaq istərdim. Bu bəyanat təkcə Azərbaycanda təəccüblə qarşılanmayıb, ona Rusiya Federasiyası tərəfindən də "Valday" forumu çərçivəsində müvafiq cavab verilib.

Beləliklə, bəyanat sözbəsöz belədir: "Qarabağ Ermənistanın bir hissəsidir və nöqtə". Birincisi, yumşaq desək, bu, yalandır. Dünya tərəfindən həm Aran, həm də Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsi kimi tanınır. Ermənistan özü də bu qanunsuz qurumu tanımır. Qarabağ tarixi, əzəli Azərbaycan torpağıdır. Beləliklə, Qarabağ Azərbaycandır və nida işarəsi".

Digər maraqlı məqam da odur ki, əgər Ermənistanın baş naziri yalan bəyanatı Xankəndidə bir qrup tərəfdarı qarşısında səsləndirmişdisə, Azərbaycan Prezidenti əsl həqiqəti beynəlxalq tədbirdə - "Valday" Beynəlxalq Diskussiya Klubunun plenar sessiyasında səsləndirdi, dünyanın maraqla izlədiyi bu forumda bir daha Qarabağın Azərbaycan torpağı olduğunu diqqətə çatdırdı. Bununla da Azərbaycan Prezidenti Ermənistanın işğalçı-terrorçu dövlət olduğunu bir daha bəyan etdi. Eyni zamanda Paşinyanın bəyanatına əsaslı şəkildə zərbə vurmaqla Vladimir Putinin timsalında Rusiyanın tam siyasi dəstəyini qazandı. Ölkəmizin rəhbəri xalqımızın mövqeyini yüksək tribunadan diqqətə çatdıraraq Ermənistana mesaj ünvanladı ki, Azərbaycan bu işğalla heç vaxt barışmayacaq.

Ermənistanın baş nazirinin bu sərsəm bəyanatı onların ənənəvi tərəfdaşları tərəfindən də ciddi qəbul edilmir. Hətta nəinki qəbul edilmir, eləcə də bu bəyanat siyasi prosesin tənzimlənməsinə zərbə kimi xarakterizə edilir. Paşinyan ucuz siyasətlə özünə xal toplamağa çalışdı. Lakin o anlamır ki, Ermənistana onun kimi baş nazirlər hələ çox gəlib-gedəcəklər. Bu ölkədə siyasət kökündən dəyişməsə, yaxşılığa doğru heç nə dəyişməyəcək. Növbəti insanlar hakimiyyətə gələ və belə bəyanatları çox verə bilərlər. İş burasındadır ki, nə qədər ki onlar qonşu dövlətlərlə mehriban qonşuluq siyasəti yeritmək istəmirlər, problemləri davamlı olacaq, hətta artacaq. Təsadüfi deyil ki, Ermənistanda demoqrafik vəziyyət gündən-günə pisləşir. Əhali durmadan xarici ölkələrə köçür. İşsizlik artır. Başlıcası da odur ki, Ermənistan vətəndaşlarının gələcəyə inamı yoxdur. Bu gün erməni ailələri öz övladlarını Ermənistanın millətçi, avantürist rəhbərlərinin siyasətinə qurban vermək istəmirlər. Xüsusilə 2016-cı il Aprel döyüşlərindən sonra hər zaman Azərbaycanın yenidən hərbi əməliyyatlara başlaması qorxusu onları narahat edir.

Nikol Paşinyanın bu bəyanatı Rusiyada da birmənalı qarşılanmayıb. Məsələn, Rusiyanın Xarici İşlər naziri Sergey Lavrov "Valday" Beynəlxalq Diskussiya Klubunun illik iclasında Dağlıq Qarabağ prosesinin nizamlanması haqqında sualı cavablandırarkən deyib ki, ATƏT-in Minsk qrupunun həmsədrləri sıx dostluq şəraitində çalışırlar. Onlar bu il üç dəfə xarici işlər nazirləri ilə görüşüblər, o cümlədən bu ilin aprelində onun iştirakı ilə Azərbaycanın və Ermənistanın xarici işlər nazirləri ilə görüş keçirilib. İndi vəziyyət sakitdir. Lakin siyasi proses yavaşıyıb və hələlik bu ləngiməni aradan qaldıra bilmirlər. Tərəflər yetərincə ciddi bəyanatlar, o cümlədən Qarabağın Ermənistan olması barədə bəyanatlar verirlər. Şübhəsiz ki, belə bəyanatlar siyasi prosesin tənzimlənməsinə kömək etmir.

Söz yox ki, Prezident İlham Əliyevin Rusiyanın Soçi şəhərində "Valday" Beynəlxalq Diskussiya Klubunun XVI illik sessiyasında yüksək siyasi-diplomatik peşəkarlıqla etdiyi çıxış bütün Azərbaycan xalqının ürəyindən xəbər verdi. Ölkə rəhbəri bu çıxışı ilə həm ölkəmizin, həm də xalqımızın maraqlarını qətiyyətlə müdafiə etdi.

*İbrahim CƏFƏROV, Azərbaycan Dövlət Aqrar Universitetinin rektoru, AMEA-nın müxbir üzvü*

## “İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin Mənzil-Kommunal və Təmir Xidməti
## “İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin mənzil fondunun əsaslı təmiri işlərinin satın alınması üçün
## *açıq tender elan edir*

Tender 1 LOT üzrə keçirilir.

**LOT-1: “İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin mənzil fondunun əsaslı təmiri işlərinin satın alınması**

Tender iştirakçıları **https://etender.gov.az/** -dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təklifləri Portal vasitəsilə təqdim edə bilərlər.

**İştirak haqqı: 150 (bir yüz əlli) manat**

**VÖEN: 1700774621**
**H/h: AZ03AIIB33050019443600287106**
**Bank: “Kapital Bank” ASC-nin İçərişəhər filialı**
**Kod: 200060**
**VÖEN (bank): 9900003611**
**M/h: AZ37NABZ01350100000000001944**
**SWIFT: AIIBAZ2X**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *digər sənədlər: analoji işlərin yerinə yetirilməsinə dair iddiaçının potensial imkanları haqqında məlumat.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər.

Tender proseduru “Dövlət satınalmaları haqqında” qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri **08 noyabr 2019-cu il saat 12:00-a** qədər, tender təklifi və bank təminatı sənədlərini **19 noyabr 2019-cu il saat 12:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər.

İddiaçıların təklifləri **20 noyabr 2019-cu il saat 12:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**Qeyd:** Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.

***Tender komissiyası***

## “İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin Mənzil-Kommunal və Təmir Xidməti
## İçərişəhər ərazisində fasad və eyvanların təmiri işlərinin satın alınması üçün
## *açıq tender elan edir*

Tender 1 LOT üzrə keçirilir.

**LOT-1: İçərişəhər ərazisində fasad və eyvanların təmiri işlərinin satın alınması;**

Tender iştirakçıları **https://etender.gov.az/** - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təklifləri Portal vasitəsilə təqdim edə bilərlər.

**İştirak haqqı: 150 (bir yüz əlli) manat**

**VÖEN: 1700774621**
**H/h: AZ03AIIB33050019443600287106**
**Bank: “Kapital Bank” ASC-nin İçərişəhər filialı**
**Kod: 200060**
**VÖEN (bank): 9900003611**
**M/h: AZ37NABZ01350100000000001944**
**SWIFT: AIIBAZ2X**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *digər sənədlər: analoji işlərin yerinə yetirilməsinə dair iddiaçının potensial imkanları haqqında məlumat.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər.

Tender proseduru “Dövlət satınalmaları haqqında” qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri **12 noyabr 2019-cu il saat 12:00-a** qədər, tender təklifi və bank təminatı sənədlərini **20 noyabr 2019-cu il saat 12:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər.

İddiaçıların təklifləri **21 noyabr 2019-cu il saat 12:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**Qeyd:** Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Dayanıqlı və Operativ Sosial Təminat (DOST) Agentliyinin “Azərbaycan” qəzetinin 18 oktyabr 2019-cu il tarixli nömrəsində dərc edilmiş tender elanında dəftərxana və təsərrüfat mallarının satın alınması ilə bağlı keçiriləcək açıq tenderin ilkin sənədlərinin qəbulu 05 noyabr 2019-cu il saat 17:00-a, təkliflərin son təqdimat tarixi 15 noyabr 2019-cu il saat 15:00-a qədər və zərflərin açılışı isə 15 noyabr 2019-cu il saat 16:00-a qədər uzadılmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

15 oktyabr 2019-cu il Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin inzibati binasında xidməti istifadədə olan Mitsubishi Elevators Asiya KO şirkətinin istehsalı olan GPQ3L1 markalı P1 liftin normal fəaliyyət göstərməsi üçün kabinə üstü elektrik paylayıcı platatın satın alınması üçün keçirilən kotirovka sorğusunda “Ag Melco Elevator Azerbaijan CO.” MMC qalib olmuş və 18 oktyabr 2019-cu ildə satınalma müqaviləsi bağlanmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti tərəfindən “Azərbaycan” qəzetinin 20 avqust 2019-cu il tarixdə dərc edilmiş elan ilə əlaqədar bildiririk ki, 20 sentyabr 2019-cu il tarixdə keçirilmiş açıq tender sorğusu metodu ilə 311210 - “Nəqliyyat vasitələri” maddəsi üzrə minik avtomobillərinin satın alınmasına dair Tender komissiyasının qərarı ilə müsabiqənin qalibi “TOYOTA GƏNCƏ MƏRKƏZİ” MMC elan olunmuş və 14 oktyabr 2019-cu il tarixdə satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

# Kür çayının Surra məntəqəsində suyun səviyyəsi 18 santimetr artıb

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentinin verdiyi məlumata görə, hazırda Böyük Qafqazın Quba-Xaçmaz bölgəsindən axan Vəlvələçayda sululuq ongünlük normaya yaxın olmaqla onun 90 faizini, Kiçik Qafqazın ərazisindən axan Kürəkçay və Zəyəmçayda sululuq ongünlük normadan az və normaya yaxın olmaqla 30-90 faizini, Lənkəran-Astara bölgəsindən axan Lənkərançay, Vəşəruçay və Viləşçayda isə sululuq ongünlük normadan az olmaqla 30-70 faizini təşkil edir.

Departamentdən AZƏRTAC-a bildiriblər ki, oktyabrın 18-də Kür çayının Qıraqkəsəmən məntəqəsində suyun səviyyəsində 4 santimetr azalma müşahidə olunub. Hazırda məntəqədə su sərfi saniyədə 130 kubmetr təşkil edir ki, bu da ongünlük normadan az olmaqla onun 77 faizinə bərabərdir.

Qanıx çayının Əyriçay məntəqəsində suyun səviyyəsində dəyişiklik müşahidə qeydə alınmayıb. Hazırda məntəqədə su sərfi saniyədə 43 kubmetrə bərabərdir. Bu da ongünlük normadan az olmaqla onun 40 faizini təşkil edir.

Araz çayının Qıvraq məntəqəsində suyun səviyyəsi 3 santimetr azalıb. Hazırda məntəqədə su sərfi saniyədə 57 kubmetr təşkil edir ki, bu da ongünlük normadan az olmaqla onun 78 faizinə bərabərdir.

Oktyabrın 18-də Kür çayının aşağı axınında suyun səviyyəsində əsasən müհüm dəyişiklik müşahidə olunmayıb. Bələ ki, Kür çayının Surra məntəqəsində suyun səviyyəsi 18 santimetr artaraq 331 santimetr təşkil edib. Şirvan məntəqəsində suyun səviyyəsi 2 santimetr artaraq 181 santimetr olub. Salyanda suyun səviyyəsi 10 santimetr azalıb və 114 santimetrə bərabər olub. Bankə məntəqəsində isə suyun səviyyəsi dəyişməyərək 155 santimetr təşkil edib. Araz çayının Novruzlu məntəqəsində suyun səviyyəsi 15 santimetr azalaraq 30 santimetr olub.








Bu cür harmoniyanı Bakının bir çox parklarında seyr etmək mümkündür. Bax, elə burada ətrafa çətir tutan yamyaşıl ağacların yarpaqlarının həzin pıçıltısı insana sərinlikdən başqa, həm də mənəvi dinclik bəxş edir. Fəvvarələrin şaqraq səsi isə bəzən xoş bir nəğməni xatırladır. Parkda məskən salmış bu daimi “sakin” də sanki səsini səslərə qoşaraq öz “nəğmə”sini təqdim edir.

*“Azərbaycan”*
*Foto Fərman BAĞIROVUNDUR*

## B İ L D İ R İ Ş
## *Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi “Sumqayıt Kimya Sənaye Parkı” MMC aşağıdakı lotlar üzrə işlərin satın alınması üçün təkliflər sorğusu keçirir*

**LOT 1.** Sumqayıt Kimya Sənaye Parkının 167.66 hektar ərazisində yerləşən Peşə Tədris Mərkəzinin C və E bloklarının zirzəmisində emalatxana avadanlıqlarının quraşdırılması üçün zirzəminin təyinatının dəyişdirilməsi üzrə layihə-smeta sənədlərinin hazırlanması.

**LOT 2.** Sumqayıt Kimya Sənaye Parkının S.Vurğun küçəsi, 1183 ünvanında yerləşən 94.13 hektar ərazisində inşa olunacaq avtomobil dayanacağının şəhərsalma əsaslandırılmasının layihəsinin hazırlanması.

Təkliflər sorğusu iştirakçılarına təklif edilir ki, qiymət təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Müqaviləni yerinə yetirmək üçün iştirakçılar lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Prosedurda iştirak etmək istəyənlər LOT üçün iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu “Sumqayıt Kimya Sənaye Parkı” MMC-nin Bakı şəhəri, Xocalı prospekti, 37, “Demirchi Tower”də yerləşən ofisindən yazılı müraciət etməklə əldə edə bilərlər. Əlaqələndirici şəxs - Abbas Mamedov (telefon: 012-488-80-65).

**İştirak haqqı:**
**LOT 1. 100 manat**
**LOT 2. 100 manat**
**H/h: AZ65PAHA38090AZNHC0190006581**
**VÖEN: 2902478331**
**Bank: “PAŞA Bank” ASC**
**Bankın VÖEN-i: 1700767721**
**Bankın kodu: 505141**
**SWIFT: PAHAAZ22**
**M/h: AZ82NABZ01350100000000071944**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar təkliflər sorğusunda iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *təkliflər sorğusunda iştirak etmək üçün yazılı müraciət;*
- *iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *qiymət təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı **30** bank günü qüvvədə olmalıdır);*
- *qiymət təklifi dəyərinin **1 faizi** həcmində bank təminatı (qiymət təklifinin qüvvədə olma müddəti bitdikdən sonra **30** bank günü);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq dövlət orqanlarından arayış;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *rəhbər şəxsin (imza sahibinin) tutduğu vəzifəni təsdiq edən sənədin surəti;*
- *tələb olunan digər zəruri sənədlər.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan təkliflər Azərbaycan dilinə tərcümə olunmalıdır).

Təkliflər sorğusu proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikası Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar prosedurda iştirak etmək üçün yuxarıda göstərilən sənədləri **25 oktyabr 2019-cu il saat 13:00-dək** “Sumqayıt Kimya Sənaye Parkı” MMC-nin Bakı şəhəri, Xocalı prospekti, 37, “Demirchi Tower” ünvanında yerləşən ofisinə yazılı formada təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **25 oktyabr 2019-cu il saat 16:00-da** Bakı şəhəri, Xocalı prospekti, 37, “Demirchi Tower” də yerləşən ofisində, iclas zalında açılacaqdır.

Zərflərin açılmasında iddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş
### *“Azəraqrartikinti” Açıq Səhmdar Cəmiyyəti səhmdarlarının növbəti ümumi yığıncağı 12 dekabr 2019-cu il saat 11:00-da cəmiyyətin Bakı şəhəri, Şəfayət Mehdiyev küçəsi, 93 saylı ünvanda yerləşən inzibati binasında keçiriləcəkdir.*

**YIĞINCAĞIN GÜNDƏLİYİ:**

1. Hesabat dövrü üçün cəmiyyətin fəaliyyətinin yekunlarının müzakirəsi və balansların təsdiqi (İdarə Heyətinin hesabatı);
2. Cəmiyyətin Maliyyə-Təftiş Komissiyasının hesabatı;
3. Cəmiyyətin Müşahidə Şurasının yenidən seçilməsi;
4. Cəmiyyətin İdrarə Heyətinin tərkibində dəyişiklik edilməsi haqqında;
5. Cəmiyyətin yenidən təşkili ilə əlaqədar təkliflərin hazırlanması üçün işçi qrupunun yaradılması və təkliflərin səhmdarların növbəti ümumi yığıncağının müzakirəsinə çıxarılması;
6. Cəmiyyətin balansındakı mal-material qiymətlərinin inventarizasiyasının aparılması və balans dəyərinin dəqiqləşdirilməsi:
7. Digər məsələlər.

***Müşahidə Şurası***

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

Qəzetin daim yenilənən rəsmi internet ünvanı:
www.azerbaijan-news.az

## ALLAH RƏHMƏT ELƏSİN!

Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Eldar İbrahimov və komitənin üzvləri Azərbaycan Respublikasının Daxili İşlər naziri, Vilayət Eyvazova bacısı

**ÇİÇƏK XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

“Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyətinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazova bacısı

**ÇİÇƏK XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Bakı şəhəri Nəsimi Rayon Məhkəməsinin sədri İlham Cəfərov Azərbaycan Respublikasının Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazova bacısı

**ÇİÇƏK XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı AC-nin rəhbərliyi və kollektivi Yuxarı Şirvan Kanalı İstismar İdarəsinin rəisi İlyas Səfərova anası

**GÜLLÜ SƏFƏROVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Sumqayıtdan Zakir Fərəcov Azərbaycan Respublikasının Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazova bacısı

**ÇİÇƏK XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Siyəzəndən Novruz Novruzov Azərbaycan Respublikasının Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazova bacısı

**ÇİÇƏK XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Astaradan Qəzənfər Ağayev Azərbaycan Respublikasının Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazova bacısı

**ÇİÇƏK XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Adil Məmmədov və Qobustan Rayon İcra Hakimiyyəti Başçısı Aparatının kollektivi Azərbaycan Respublikasının Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazova bacısı

**ÇİÇƏK XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Sumqayıt Dövlət Universitetinin rektorluğu və universitetin Həmkarlar İttifaqı Komitəsi Mühəndislik fakültəsinin dekanı, dosent Ulduz Ağayevə əmisi

**YADULLA AĞAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

| | |
|---|---|
| Qəbul otağı | 539-68-71, |
| Baş redaktor müavinləri | 538-86-86, 434-63-30, 538-97-96, |
| Məsul katib | 539-43-23, |
| Məsul katib müavinləri | 539-44-91, |
| Parlament və siyasət şöbəsi | 539-72-39, 539-84-41, 539-21-00, |
| İqtisadiyyat şöbəsi | 538-42-32, 538-35-55, |
| Beynəlxalq həyat, idman və informasiya şöbəsi | 432-37-68, |
| Humanitar siyasət şöbəsi | 538-56-60, 539-63-82 |
| İctimai əlaqələr şöbəsi | 539-49-20, 538-31-11, |
| Fotoillüstrasiya şöbəsi | 538-84-73, |
| Kompüter mərkəzi | 538-20-87, |
| Mühasibatlıq | 539-59-33 |

Qeydiyyat nömrəsi 1

“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan” nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 8959
Sifariş 3451
Qiyməti 40 qəpik